QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 144 (5864) **9 avqust** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Aqrar sektorun inkişafına güclü dövlət dəstəyi

*Prezident İlham Əliyev: "Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi, aqrar sahənin inkişafı gündəlikdə duran əsas məsələlərdən biridir"*

Səh 2



4

Azərbaycan Bolqarıstana etiraz notası verib



12

Ermənistanda keçmiş deputatın biznesmen qardaşı həbs edilib



16

Qurban bayramında Müqəddəs Kəbənin örtüyü dəyişdiriləcək



# Aqrar sektorun inkişafına güclü dövlət dəstəyi

## *Prezident İlham Əliyev: "Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi, aqrar sahənin inkişafı gündəlikdə duran əsas məsələlərdən biridir"*

***Prezident İlham Əliyevin dəfələrlə vurğuladığı kimi, etibarlı ərzaq təminatı hər bir ölkənin iqtisadi sabitliyinin və sosial dayanıqlılığının başlıca şərtidir. Bu baxımdan, Azərbaycan dövləti əhalisinin ərzaqla etibarlı təminatına dair çoxyönlü tədbirlər həyata keçirir və ərzaq təhlükəsizliyinin birbaşa asılı olduğu aqrar sahənin inkişafına yönələn irimiqyaslı dövlət proqramları həyata keçirir. Hazırda ölkədə əhalinin etibarlı ərzaq təminatı dövlətin iqtisadi siyasətinin başlıca istiqamətlərindən birini təşkil edir.***



Məhz iyulun 31-də Prezident İlham Əliyevin Sədrliyi ilə keçirilən müşavirədə ölkəmizin, bütün sahələrində olduğu kimi, kənd təsərrüfatında da əldə olunan uğurlu nailiyyətlərdən və rekord göstəricilərdən bəhs olunub: "Bu sahədə də işlər uğurla gedir.





Kənd təsərrüfatı hər bir ölkə üçün önəmli sahədir. Ərzaq təhlükəsizliyinin təmin edilməsi bizim üçün əsas vəzifədir, eyni zamanda, biz öz ixrac imkanlarımızı da genişləndiririk".

Ümumiyyətlə, dövlətin bütün sahələrdə olduğu kimi, aqrar sahədə də apardığı uğurlu işlər, imzalanan sərəncam və fərmanlar, məhz ölkə vətəndaşlarının firavan həyatına hesablanmış addımlardır. Ölkə başçısının "Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında" imzaladığı Fərman bir daha dövlətin aqrar sektorun inkişafına növbəti dəstəyinin təzahürüdür. Bu Fərmanla təsdiq edilmiş "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası"na əsasən, bitkiçilik sahəsində subsidiyaların hesablanmasında istifadə olunan baza məbləği 200 manat müəyyən edilir. Sənəd, subsidiya mexanizmlərinin təkmilləşdirməklə yanaşı, fermerlərin subsidiyalara əlçatanlılığının təmin edilməsinə xidmət edir. Dövlət başçısı müşavirədə susidiyalarla bağlı təkliflərdən danışaraq vurğulayıb ki, bu, imkan verəcək ki, qeyd edilən sahədə də müsbətə doğru çox ciddi dönüş yaransın: "Çünki subsidiyaların verilməsində də böyük pozuntular olmuşdur. Bəzi hallarda subsidiyalar ünvana çatmırdı, bəzi hallarda çox kortəbii şəkildə verilirdi. Dövlət tərəfindən güzəştli şərtlərlə alınması nəzərdə tutulan gübrələr də, bir çox hallarda, keyfiyyətsiz idi. İndi gübrə təminatında dövlət 70 faiz yükü öz üzərinə götürür. Amma bəzi hallarda, keyfiyyətsiz və müddəti keçmiş gübrələr gətirilirdi və o, kənd təsərrüfatına xeyirdən çox ziyan verirdi. Digər pozuntular da olub. Ona görə bütün pozuntular aradan qaldırılmalıdır".

Prezident İlham Əliyev, həmçinin, dövlət tərəfindən verilən dəstəkdən danışarkən bildirib ki, Azərbaycanda kənd təsərrüfatı ilə məşğul olanlara dövlət tərəfindən verilən dəstək, heç bir başqa ölkədə yoxdur: "Məhz dövlət tərəfindən göstərilən dəstəyin nəticəsidir ki, bu gün yüksək artım var. Qeyd etdiyim kimi, kənd təsərrüfatı sahəsində 4,6 faiz artım yaxşı göstəricidir. Ancaq bu sahədə də çox ciddi islahatlar aparılır. Kənd Təsərrüfatı Nazirliyinin yeni rəhbərliyi bir çox önəmli təşəbbüslər irəli sürüb. Mən onları bəyənmişəm, dəstəkləmişəm. İndi onların icrası başlanılır. Mən əminəm ki, bu islahatlar nəticəsində, kənd təsərrüfatı istehsalı böyük dərəcədə artacaq, o cümlədən, ixrac artacaq, daxili tələbat daha çox yerli məhsullar hesabına təmin ediləcəkdir. Özümüzü təminetmə əmsalı artacaq, qeyd etdiyim kimi, ixrac imkanlarımız genişləndiriləcək, biz yeni bazarlara çıxış əldə edəcəyik".

### "Kənddə işləyən vətəndaş daim hiss etməlidir ki, dövlət hər zaman onun yanındadır"

Dövlət başçısı kənd təsərrüfatının çox ciddi, çox böyük sahə olduğunu vurğulayaraq bildirib ki, əhalinin demək olar ki, yarısı kəndlərdə yaşayır: "Ona görə bu sahə daim diqqət mərkəzindədir. İri fermer təsərrüfatlarının və aqroparkların yaradılması istiqamətində də yaxşı nəticələr var. Proqrama görə, bizdə, ümumiyyətlə, 51 aqropark və iri fermer təsərrüfatı yaradılmalıdır. Onlardan 17-si yaradılıb və bu 17 aqroparkın ümumi sahəsi 104 min hektardır. Ümumiyyətlə isə, bütün aqroparkların əhatə etdiyi sahə təqribən 200 min hektara yaxın olacaqdır. İndi 31 aqroparkın yaradılmasına 2,2 milyard manat vəsait nəzərdə tutulur. Onların istehsal edəcəyi məhsullar, indi təxmini hesablamalar göstərir ki, təqribən 800 milyon-1 milyard manata yaxın olacaqdır".

Prezident İlham Əliyev kənd təsərrüfatını stimullaşdırılmasında görülən işlərə də toxunub: "Texnikanın alınması. Təkcə keçən il 5800 texnika alınıb. Əvvəlki illərdə bəzən 9 min, 8 min texnika alınıb. Biz texnika parkımızı böyük dərəcədə təzələmişik. Ən qabaqcıl şirkətlərin texnikası alınır, istər taxılçılıqda, istər pambıqçılıqda və digər sahələrdə. Ona görə biz bu sahədə işlərimizi davam etdirəcəyik. Biz kəndliləri, torpaq vergisi istisna olmaqla, bütün vergilərdən azad etmişik. Mən bilmirəm, bu qədər dəstək göstərən ikinci belə ölkə varmı? Gübrə 70 faiz, yanacaq 50 faiz dövlətin hesabına, texnika dövlət tərəfindən alınaraq güzəştli şərtlərlə verilir, subsidiyalar, infrastruktur layihələri. İndi 100 min hektar torpağın dövriyyəyə cəlb olunması, suvarma suyu ilə təmin edilməsi, yolların çəkilməsi - bütün bunlar güzəştli kreditlər hesabınadır. Sahibkarlığın inkişafına yönələn kreditlərin əksəriyyəti kənd təsərrüfatına gedir. Amma biz daha böyük nəticələr gözləyirik".

### Son 16 ildə Azərbaycanda aqrar sahədə uğurlu nailiyyətlər

Bu illər ərzində milli iqtisadiyyatın bazar prinsipləri əsasında qurulması istiqamətində məqsədyönlü siyasət həyata keçirilib, regionların və ayrı-ayrı iqtisadi və sosial sahələrin inkişafına dair dövlət proqramları uğurla icra olunub, ölkə əhalisinin həyat səviyyəsi əhəmiyyətli dərəcədə yaxşılaşıb. Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkə iqtisadiyyatının neftdən asılılığını azaltmaq üçün qeyri-neft sektorunun və onun əsas sahələrindən biri olan aqrar sektorun inkişafı prioritet istiqamət kimi önə çəkilib. Təkcə aqrar sahədə çalışan sahibkarlara Azərbaycan Prezidenti tərəfindən tətbiq edilən vergi güzəştləri milyarddan çox vəsaitin sahibkarlarda qalmasına şərait yaradıb. Bu da, təbii ki, kənd təsərrüfatının inkişafı üçün mühüm addımdır. Bundan əlavə, Milli Fonddan təkcə aqrar sahibkarlığa 1 milyarddan çox vəsait ayrılıb. Bu, əlbəttə, kənd təsərrüfatı sahələrinin genişlənməsinə xidmət edir. Son 16 ildə kənd yollarının tikintisi, rayonlarda aqrar sahə ilə bağlı tikilən müəssisələr və digərləri aqrar sahənin inkişafına xidmət edir. Bu gün abadlaşan bölgələrimiz, dünyanın ən gözəl şəhərlərindən birinə çevrilən Bakı, tikilən 3 mindən artıq məktəb, 600-dən çox xəstəxana, 50-dən çox Olimpiya Mərkəzi, çəkilmiş 11 min kilometrdən çox yol, 250 mindən çox köçkün üçün salınmış 100-ə yaxın təzə qəsəbə, yeni yaradılmış enerji infrastrukturu, dinamik inkişaf edən və şaxələndirilən iqtisadiyyat - bütün bunların təməlində neftdən əldə edilən gəlirlərdən səmərəli istifadə etməyə yönəlmiş sistemli islahatlarla daim təkmilləşən iqtisadiyyatın Azərbaycan modeli dayanır. Bu modelin bünövrəsi Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş və İlham Əliyev tərəfindən müasir tələblərə uyğun modernləşdirilərək inkişaf etdirilib. Dövlət büdcəsindən kənd təsərrüfatı sahəsinə ayrılan vəsait digər sahələrdən dəfələrlə fərqlənir. Belə ki, 2019-cu ilin dövlət büdcəsində bu sahəyə 874 milyon manat həcmində vəsait ayrılıb. Bütün bunlar göstərir ki, Azərbaycan iqtisadiyyatı növbəti illərdə daha inkişaf edəcək, aqrar sahədə əldə etdiyimiz uğurların sayı gündən-günə artacaq.

### Aqroparklar kənd təsərrüfatının yeni və müasir inkişaf modelidir

Əlbəttə ki, aqroparkların da çox böyük əhəmiyyəti var. Artıq 250 min hektarda 51 aqropark yerləşib. Məhz bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində, hazırda ölkəmiz bir çox strateji ərzaq məhsulları üzrə tələbatını yerli istehsal hesabına ödəyir.

Beləliklə, göstərilən faktlar, bir daha sübut edir ki, Azərbaycan iqtisadiyyatı inkişaf edir və kənd təsərrüfatının bütü sahələrinin inkişafı isə Azərbaycanın ixrac potensialını artıracaq ki, bu da həm ölkəyə valyuta axınını artıracaq, həm də Azərbaycan məhsullarının dünya bazarlarına çıxışını sürətləndirəcək. Ən əsası isə, ərzaq təhlükəsizliyinin təmin olunmasına yol açacaq. Çünki kənd təsərrüfatının inkişaf etdirilməsi, dövlətin iqtisadiyyatımızın dinamik inkişafına, əhalinin həyat şəraitinin yüksəlməsinə, yeni iş yerlərinin açılmasına, mövcud ictimai-siyasi sabitliyin daha da möhkəmlənməsinə, Azərbaycan yaxın illərdə özünü vacib ərzaq məhsulları ilə təmin etməklə yanaşı, həm də bu sahədə regionun əsas ixracatçı ölkəsinə çevrilməsinə stimul verəcəkdir.

***RƏFİQƏ KAMALQIZI***

# Paytaxtımız “Bakı 2019” XV Avropa Gənclər Yay Olimpiya Festivalına uğurla ev sahibliyi etdi








***Azərbaycan və paytaxt Bakımız XV Avropa Gənclər Olimpiya Festivalının həyəcan və sevincini yaşadı. Festivalın maraqlı açılış və bağlanış mərasimləri dünya miqyasında Azərbaycanın tarixi, müasirliyi, irsi və mədəniyyəti ətrafında yüksək fikirləri daha da dərinləşdirdi. Azərbaycanın idman ölkəsi olduğunu bir daha təsdiqlədi. Təbii ki, ölkənin beynəlxalq aləmdə tanınmasında, yetişən nəslin sağlam inkişafında önəmli vasitələrdən biri olan idmana da dövlətimiz tərəfindən xüsusi diqqət yetirilir. Azərbaycanda idmanın inkişafına təkan olan maddi-texniki baza da yaradılıb. Ölkəmizdə, xüsusilə, son 16 ildə tikilən olimpiya idman kompleksləri və təlim-məşq bazaları idmanın inkişafına xidmət edir. Azərbaycanın idman sahəsində qazandığı nailiyyətlər, dünya və Avropa çempionatlarında idmançılarımızın qazandığı medallar və mükafatlar ölkəmizin beynəlxalq idman təşkilatlarında da mövqeyinin xeyli güclənməsinə səbəb olub və Azərbaycanı dünyaya əsl idman ölkəsi kimi tanıdıb. Məhz bu səbəbdən də, beynəlxalq idman ictimaiyyəti, idman federasiyaları həvəslə ən mötəbər yarışları ölkəmizə həvalə edir. Bakı və eləcə də, digər şəhərlərimiz bu yarışları yüksək səviyyədə təşkil edərək, Azərbaycanın bu sahədə dünya liderləri sırasında olduğunu göstərirlər.***



## AZƏRBAYCAN İDMAN TARİXİNƏ DAHA BİR SƏHİFƏ YAZMIŞ OLDU

Dünyanın 7 gün ərzində izlədiyi XV Avropa Gənclər Olimpiya Festivalında Azərbaycan idmançılarının qələbələri bu sevinci daha da artırdı. Avropanın 48 ölkəsindən 3900-dək atletin mübarizə apardığı “EYOF Bakı 2019” XV Avropa Gənclər Yay Olimpiya Festivalında - idman mübarizəsində 23 medal - 10 qızıl, 7 gümüş və 6 bürünc qazanan Azərbaycan millisi komanda hesabında dördüncü pillədə qərarlaşdı. Bu, Azərbaycan idman tarixinə daha bir səhifə yazmış oldu. Siyahıya aktivində 66 (28 qızıl, 17 gümüş və 21 bürünc) medal olan Rusiya komandası başçılıq edir. Böyük Britaniya idmançıları 25 medalla (11 qızıl, 12 gümüş, 2 bürünc) ikinci, Türkiyə komandası isə 27 medalla (11 qızıl, 6 gümüş və 10 bürünc) üçüncü sırada qərarlaşıblar. İlk onluqda İtaliya (8-9-9), Ukrayna (8-7-10), İspaniya (7-4-10), Fransa (6-8-14), Polşa (6-3-6), Belarus (6-2-6) yığmaları yer alıblar.

Bildiyimiz kimi, Avropa Gənclər Yay Olimpiya Festivalı Beynəlxalq Olimpiya Komitəsinin (BOK) himayəsi altında keçirilir və 25 ildən artıq ənənəsi var. 14-18 yaş arası gənc idmançılar üçün ilk çoxprofilli Avropa tədbiri olan bu festival Olimpiya bayrağı altında keçirilir və Olimpiya ənənələri ilə zəngindir.

“Zirvələrə hazırıq” devizi altında paytaxtımızda keçirilən “Bakı 2019” XV Avropa Gənclər Yay Olimpiya Festivalının yarışları paytaxtın 12 idman obyektində davam edib.

Xatırladaq ki, 2021-ci ildə növbəti - XVI Festival Slovakiyanın Banska Bistritsa şəhərində keçiriləcək.

## XV AVROPA GƏNCLƏR OLİMPİYA FESTİVALINI YÜKSƏK SƏVİYYƏDƏ TƏŞKİL ETMƏKLƏ AZƏRBAYCAN İDMAN ÖLKƏSİ OLDUĞUNU BİR DAHA NÜMAYİŞ ETDİRDİ

Beynəlxalq tədbirləri yüksək səviyyədə təşkil edən Azərbaycan XV Avropa Gənclər Olimpiya Festivalını da yüksək səviyyədə təşkil etmişdi. Uğurları ilə tanınan ölkəmiz XV Avropa Gənclər Olimpiya Festivalının təşkilində tarixə yeni imzasını atdı. Festivalın canlı şahidi olmaq üçün ölkəmizə gələn əcnəbilər Azərbaycan mədəniyyətinin, xalqımızın qonaqpərvəliyinin, paytaxtın gözəlliyinin, insanların mehribanlığının, şəhərin sakitliyinin, gözəlliyinin şahidinə çevrildilər. Bakının olduqca gözəl tarixi və müasir binaları uzun müddət yaddaşlardan silinməyəcək. Xalqımızın tolerantlığı, sülhsevərliyi və qonaqpərvərliyi dünyaya bir daha nümayiş etdirildi.

Milyonlarla idman həvəskarının böyük maraqla gözlədiyi XV Avropa Gənclər Olimpiya Festivalı dünya miqyasında cəlbedici bir ölkə ilə daha yaxından tanışlıq üçün bir daha yollar açdı. Yeddi gün ərzində gərgin mübarizə və dostluq şəraitində keçən XV Avropa Gənclər Olimpiya Festivalını yüksək səviyyədə təşkil etməklə, Azərbaycan idman ölkəsi olduğunu bir daha nümayiş etdirdi. Avropa Gənclər Olimpiya Festivalı gənclərin bayramıdır və festivalın ərsəyə gəlməsində yardımçı olmuş üç min beş yüz könüllünün də rolu var.

Dünyada ən mötəbər idman turnirlərinin mahir təşkilatçısı kimi tanınan Azərbaycan festival çərçivəsində yüksək təşkilatçılıq qabiliyyətini nümayiş etdirdi. Festivalın yarışları, sözün həqiqi mənasında, əsl idman və həmrəylik bayramına çevrildi, maraqlı və parlaq qələbələrlə yadda qaldı.

Bununla da, Azərbaycan daha bir mötəbər turnirə yüksək səviyyədə ev sahibliyi etdi. Bu mötəbər idman turnirinin uğurlu təşkilini təmin edən mühüm amillərdən biri, son illər, Azərbaycanın beynəlxalq idman tədbirlərinin keçirilməsində qazandığı zəngin təcrübədir. 2015-ci ildə tarixdə ilk Avropa Oyunları, 2016-cı ildə 42-ci Ümumdünya Şahmat Olimpiadası, 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunları, son bir neçə ildə “Formula-1” Qran-Prisi, bu ilin mayında UEFA Avropa Liqasının final qarşılaşması kimi mötəbər yarışlara uğurla ev sahibliyi edən Azərbaycan XV Avropa Gənclər Olimpiya Festivalını da müvəffəqiyyətlə təşkil etməklə, bir daha dünyanın diqqət mərkəzinə çevrildi.

Əlbəttə ki, paytaxt Bakıda beynəlxalq yarışların keçirilməsi istiqamətində ölkəmizdə ciddi işlərin görülməsi iqtisadi gücümüzə və dinamik inkişafa söykənir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Rusiyalı deputat: "Nikol Paşinyanın bəyanatı həm Rusiyaya, həm də dünya birliyinə qarşı yönəlib"

***"Başqa ölkənin ərazisinin işğalı ilə münaqişəni dinc yolla həll etmək çağırışları bir araya sığmır".***



Bunu "Report"un Rusiya bürosuna verdiyi eksklüziv müsahibəsində Rusiya Dövlət Dumasında Rusiya - Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Dmitri Savelyev Ermənistanın baş naziri Nikol Paşinyanın işğal olunmuş Azərbaycan torpaqlarına gəlib hədələyici bəyanat verməsini şərh edərkən söyləyib.

"Ola bilsin, bu populist bəyanat Ermənistan əhalisinin diqqətini çətin iqtisadi vəziyyətdən yayındırmaq cəhdidir. Lakin regionda kövrək sülhün pozulması daha ağır itkilərə gətirib çıxara bilər, buna yol verməməliyik. Bu regiona hərbi və siyasi təlatümlər yox, uzunmüddətli sabitlik lazımdır", - deyən D.Savelyev Rusiyanın Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini vurğulayıb:

"Rusiya da Cənubi Qafqazda vəziyyətin daha da kəskinləşməsinə yol verməmək üçün danışıqlar prosesini ardıcıllıqla irəli aparan ATƏT-in Minsk qrupunun həmsədrlərindəndir. Beləliklə, Ermənistan baş nazirinin bu çıxışını həm Rusiyaya, həm də Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən dünya birliyinə qarşı bədniyyətli həmlə kimi dəyərləndirmək olar".

"Ermənistanı davakar bəyanatları qırağa qoyub danışıqlar masasında daha konstruktiv mövqe tutmağa çağırıram. Həm erməni, həm Azərbaycan xalqı eyni dərəcədə sülh və əmin-amanlığa, firavanlığa, səmərəli iqtisadi inkişafa möhtacdır", - rusiyalı deputat əlavə edib.

# Azərbaycanın qəzaya uğramış "MiQ-29" təyyarəsinin axtarışında Rusiya da iştirak edəcək



Rusiyanın Xəzər dənizi filotiliyası Azərbaycan Ordusunun qəzaya uğramış "MiQ-29" təyyarəsinin axtarışında iştirak edəcək. AZƏRTAC "RİA Novosti"yə istinadla xəbər verir ki, bunu Cənub Hərbi Dairəsinin mətbuat katibi Vadim Astafyev jurnalistlərə açıqlamasında deyib. O bildirib ki, axtarış qrupuna 50-yə yaxın şəxsi heyət, "Anatoli Qujvin" hidroqrafiq gəmisi, "SB-45" xilasetmə buksir gəmisi, dənizin dibində axtarışların aparılması üçün istifadə olunan mobil kompleks, axtarışların idarə edilməsi üçün "Flakon" aparatı və digər avadanlıq daxildir. Axtarış bölgəsinin ərazisi 600 kvadrat kilometrdən çox, dərinliyi isə 40 metrdir.

Azərbaycan Müdafiə Nazirliyinin mətbuat xidməti bu faktı AZƏRTAC-a təsdiqləyib. Qeyd edək ki, iyulun 24-də saat 22.00 radələrində plana uyğun olaraq gecə vaxtı təlim-məşq uçuşları keçirən Hərbi Hava Qüvvələrinin MiQ-29 təyyarəsi ilə qəflətən rabitə əlaqəsi kəsilib və aviasiya vasitəsi radarlardan itib. İlkin ehtimala görə aviasiya qəzası nəticəsində hərbi təyyarə Xəzər dənizinə düşüb. Pilotun axtarışı və xilas edilməsi üçün təxirəsalınmaz tədbirlər həyata keçirilir.

İyulun 31-də Bakıya gələn Türkiyə Respublikasının aidiyyəti qurumlarının xüsusi avadanlıq və qurğularla təchiz edilmiş mütəxəssisləri təlim-məşq uçuşları zamanı qəzaya uğramış hərbi təyyarənin axtarışı üzrə keçirilən əməliyyatlara cəlb olunub.

# Gürcüstandan Azərbaycan istiqamətində dövlət sərhədini pozmuş şəxs saxlanılıb



Dövlət Sərhəd Xidməti (DSX) sərhədlərimizin etibarlı mühafizəsi tədbirlərini davam etdirir. DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, avqustun 7-də Xidmətin Sərhəd Qoşunlarının "Şəmkir" sərhəd dəstəsinin Ağstafa rayonunun Ağgöl kəndinin ərazisindəki sərhəd zastavasının xidməti sahəsində Gürcüstandan Azərbaycan Respublikası istiqamətində dövlət sərhədini pozmuş bu ölkə vətəndaşı 1973-cü il təvəllüdlü Temur Şaraşidze sərhəd pozucusu qismində saxlanılıb. Fakt üzrə cinayət işi başlanıb. Zəruri əməliyyat-istintaq tədbirləri həyata keçirilir.

# Ermənistanda məişət zorakılığı halları kəskin artıb



Ermənistan İstintaq Komitəsinin məlumatına görə, 2019-cu ilin ilk yarısında məişət zorakılığı il bağlı 331 hal qeydə alınıb. AZƏRTAC erməni KİV-nə istinadla xəbər verir ki, həmin müddətdə bu hallar üzrə 180 material hazırlanıb və onlardan doqquzu Baş Hərbi İstintaq İdarəsində baxılır.

Qeyd olunur ki, məişət zorakılığı halları üzrə 176 cinayət işi qaldırılıb, 209 nəfər müttəhim qismində məsuliyyətə cəlb olunub. Bu şəxslərin 77-si 18-35 yaş, 132- nəfəri isə 35 yaşdan yuxarı insanlardır. Ailə daxilində zorakılıq halları törədənlərin yalnız 3 nəfəri qadınlardır. Qaldırılan cinayət işləri isə ən çox bədən xəsarəti yetirilməsi, şəxsi əmlaka zərər vermə, valideynlərin öz vəzifələrini yerinə yetirməsindən boyun qaçırması və 16 yaşınadək şəxslərə seksual zəmində zorakılıq maddələri ilə əlaqədardır. Bundan başqa, təhdid edildiyini bildirən 67 nəfər hüquq-mühafizə orqanlarına qoruma tələbi ilə müraciət edib. Ermənistanın hüquq ekspertləri və vətəndaş cəmiyyətinin nümayəndələri qeyd edirlər ki, məişət zorakılığı hallarının artması əhalinin maddi vəziyyətinin ağır olması ilə sıx əlaqəlidir.

# Azərbaycan Bolqarıstana etiraz notası verib



Bolqarıstan parlmentinin üzvləri Valeri Simeonov və Yordan Apostolovun bu ilin 6-7 avqust tarixlərində ölkəmizin işğal olunmuş Dağlıq Qarabağ bölgəsinə qeyri-qanuni səfəri və burada qondarma separatçı rejimin "nümayəndələri" ilə keçirdikləri görüşlərlə bağlı Azərbaycanın Bolqarıstandakı səfirliyi tərəfindən etiraz notası Bolqarıstan Xarici İşlər Nazirliyində keçirilmiş görüş zamanı qarşı tərəfin diqqətinə çatdırılıb.

Bu barədə Trend-ə Xarici İşlər Nazirliyindən məlumat verilib. Nazirlik qeyd edir ki, ermənipərəst mövqeyi ilə tanınan deputat V.Simeonovun bu, ölkəmizin işğal edilmiş ərazilərinə 3-cü qanunsuz səfəridir, onun adı 2016-cı ildə həyata keçirdiyi icazəsiz səfər nəticəsində "işğal edilmiş ərazilərimizə qanunsuz səfər etmiş xarici ölkə vətəndaşları" siyahısına daxil edilib: "Deputat Y.Apostolova gəldikdə isə, ölkəmizin işğal olunmuş ərazilərinə icazəsiz səfər edən digər xarici ölkə vətəndaşlarının halında olduğu kimi, onun da bu səfəri eyni hüquqi nəticələri doğuracaq".

# Yerevan sakinləri şəhərin zibilxanaya çevrilməsinə etiraz ediblər



Yerevan sakinləri şəhərin zibilxanaya çevrilməsinə etiraz ediblər. AZƏRTAC erməni KİV-nə istinadla xəbər verir ki, Ermənistan paytaxtının meriyası önündə etiraz aksiyası keçirən onlarla insan özləri ilə gətirdikləri məişət tullantıları dolu paketləri meriya binasının önünə qoyublar. Burada sakinlərlə əraziyə cəlb olunan polis arasında qarşıdurma baş verib və aksiyanın 3 iştirakçısı saxlanılıb. Onlara qarşı polisə müqavimət və xuliqanlıq maddələri üzrə ittiham irəli sürülüb. Etiraz aksiyasının təşkilatçısı Sona Aqekyan bildirib ki, şəhər zibilxanaya çevrilib, meriya isə bununla bağlı heç bir tədbir görmür.

Erməni mətbuatı yazır ki, hələ ötən ilin yayında Yerevanın mərkəzi küçələrində məişət tullantılarının yığışdırılması ilə bağlı ciddi problem yaranıb. Qeyd olunur ki, şəhərin bu vəziyyətə düşməsinin səbəbi təmizlik şirkətinin maliyyə problemləri və müvafiq texnikanın çatışmamasıdır. "Sanitek" adlı şirkəti dəfələrlə cərimələyən şəhər meriyası isə öz funksiyalarını yerinə yetirə bilmir. Ən acınacaqlısı isə paytaxt küçələrində siçovul və tarakan "ordusunun" yaranmasıdır.

# Noyabrda Bakıda IV Beynəlxalq Bankçılıq Forumu keçiriləcək

Noyabrın 6-7-də Bakıda IV Beynəlxalq Bankçılıq Forumu keçiriləcək. AZƏRTAC xəbər verir ki, Azərbaycan Banklar Assosiasiyasının təşkilatçılığı ilə keçiriləcək forumda Azərbaycanın bank sektorunun mövcud vəziyyəti və perspektivləri müzakirə olunacaq. Qeyd edək ki, III Beynəlxalq Bankçılıq Forumu ötən il noyabrın 15-16-da keçirilib.

# Kəngərli rayonunun Yurdçu kəndində qapalı suvarma şəbəkəsi istifadəyə verilib





***Muxtar respublikada mütərəqqi suvarma şəbəkələrinin qurulması torpaq və su ehtiyatlarından səmərəli istifadəyə, eləcə də yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılmasına səbəb olub. Son illər Babək, Culfa və Kəngərli rayonlarında 5 min hektara yaxın sahədə qapalı suvarma şəbəkəsi qurulub.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, avqustun 8-də Kəngərli rayonunun Yurdçu kəndində yeni qapalı suvarma şəbəkəsinin açılışı olub. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak edib.

Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin sədri Əsgər Əsgərov məlumat verib ki, qapalı suvarma şəbəkəsi 117 hektar sahədə qurulub. "Qıvraq-1" nasos stansiyası vasitəsilə su Arpaçay sol sahil kanalından Yurdçu kəndindəki hovuza vurulur və öz axını ilə əraziyə ötürülür. Sahəyə suyun verilməsi üçün 1400 metrlik ana xətt və 9700 metrlik paylayıcı boru xətti çəkilib. Boru xətlərinin üzərində 2 siyirtmə, 100 suvarma hidrantı və üç tərəfə çıxışı olan dəmir-beton hovuzlar qoyulub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Kəngərli rayonunun Yurdçu kəndində 108 hektar pay torpağını və Qıvraq qəsəbəsində 9 hektar bələdiyyə torpağını əhatə edən qapalı suvarma şəbəkəsinin istifadəyə verilməsini əlamətdar hadisə kimi dəyərləndirib, bu münasibətlə sakinləri təbrik edərək deyib: Torpaqların əkilməsi hər bir ölkənin inkişafında və ərzaq təhlükəsizliyinin təmin olunmasında vacib məsələlərdəndir. Muxtar respublikada da yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması, onların su təminatının yaxşılaşdırılması diqqət mərkəzində saxlanılır. Çünki muxtar respublikanın 5,5 min kvadratkilometr ərazisinin cəmi 161 min hektarı əkinəyararlı torpaqlardır. Hazırda həmin torpaqların 62 min hektara yaxınında əkin aparılır ki, onun da 51 min hektarı suvarılan ərazilərdir.

Ali Məclisin Sədri deyib: Muxtar respublikada mütərəqqi suvarma şəbəkələrinin qurulması və yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması ərzaq təhlükəsizliyinin təmin olunması sahəsində görülən işlərin tərkib hissəsidir. Yurdçu kəndində qapalı suvarma şəbəkəsinin qurulması da torpaq mülkiyyətçilərinin pay torpaqlarından səmərəli istifadə etməsinə, məşğulluğun təmin olunmasına və bol məhsul istehsalına imkan verəcəkdir. "Kitabi-Dədə-Qorqud" dastanında da yazılır ki, "Torpağı əkmirsənsə qorumağına, qorumursansa əkməyinə dəyməz". Bu gün ölkəmizdə ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər Azərbaycanın və onun Naxçıvan Muxtar Respublikasının etibarlı müdafiəsini təmin etmişdir. Torpaqlarımız etibarlı şəkildə qorunur. Qarşıda duran digər vəzifə isə torpaqların əkilməsidir. Ona görə də hər il muxtar respublikada ardıcıl olaraq meliorasiya və irriqasiya tədbirləri həyata keçirilir, yeni suvarma şəbəkələri qurulur, torpaqların su təminatı yaxşılaşdırılır. Bu il Kəngərli rayonunda 180 hektara yaxın sahədə qapalı suvarma şəbəkəsi qurulub. Hazırda Şahbuz rayonunun Türkeş kəndində 300 hektara yaxın ərazidə qapalı suvarma şəbəkəsinin qurulması, Külüs kəndində 400 hektar ərazini əhatə edəcək nasos stansiyasının tikintisi davam etdirilir. Bütün bunlar ərzaq təhlükəsizliyinin və insanların məşğulluğunun təmin olunmasına hesablanmışdır. Gələcəkdə də bu işlər davam etdiriləcəkdir. Ona görə ki, muxtar respublika blokada şəraitindədir. Əhalini ərzaqla təmin etmək üçün torpaqlar mütləq əkilməli, yeni və mütərəqqi suvarma şəbəkələri qurulmalıdır.





Ali Məclisin Sədri deyib: Muxtar respublikanın torpaqları şoranlaşmaya meyillidir. Ona görə də əkinçilikdə şırım üsulunun tətbiqi və qapalı suvarma şəbəkələrinin qurulması əsas məsələdir. Kənd Təsərrüfatı Nazirliyi, eləcə də digər aid təşkilatlar və torpaq mülkiyyətçiləri şoranlaşmanın qarşısının alınması üçün əkin qaydalarına əməl etməlidirlər. Çünki torpaqların qorunması və bol məhsul istehsalı bu sahəyə yönəldilən vəsaitin ölkə daxilində qalmasına səbəb olur. Hazırda muxtar respublikada tələbatdan artıq istehsal olunan taxıl və bostan-tərəvəz məhsulları dövlət tərəfindən alınaraq anbarlara tədarük edilir. Bu isə əhalinin ilboyu yerli məhsullarla təminatına imkan verir.

Ali Məclisin Sədri Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin əməkdaşları tərəfindən qapalı suvarma şəbəkəsinin keyfiyyətlə qurulduğunu bildirib, bu işdə əməyi olanlara təşəkkür edib.

Yurdçu kənd sakini İlham Abbasov minnətdarlıq edərək deyib: "Qapalı suvarma şəbəkəsinin qurulması kənd sakinlərinin böyük sevincinə səbəb olub. Çünki Yurdçu kəndinin sakinləri əsasən əkinçiliklə məşğul olur. Əkinçilikdə isə başlıca amil su təminatıdır. Uzun illər su çatışmazlığı səbəbindən torpaq sahələrimiz əkilməyib. Bu gün artıq dövlətimizin iqtisadi gücü bu məsələlərin həll olunmasına imkan verir. Son illərdə Kəngərli rayonunda qurulan qapalı suvarma şəbəkələri min hektarlarla torpağı əkin dövriyyəsinə qatıb. Dövlətimizin yaratdığı bu şəraitdən səmərəli istifadə edəcəyik. Hazırda uzun illər istifadə olunmayan torpaqlarda payızlıq taxıl əkininə hazırlıq görülür. Bütün bunlar sakinlərin rifahının yaxşılaşmasına hesablanıb".

Ali Məclisin Sədri qapalı suvarma şəbəkəsinin tikintisində əməyi olanlara hədiyyələr təqdim edib və suvarma şəbəkəsini işə salıb.

Sonra Ali Məclisin Sədri qapalı suvarma şəbəkəsinin əhatə etdiyi sahənin əkilməsi, torpaq mülkiyyətçilərinin keyfiyyətli toxum sortları ilə təmin olunması və ərazidə qoruyucu yaşıllıq zolaqlarının salınması barədə tapşırıqlar verib.



MƏTLƏB
Metlebsalahov@mail.ru

## Paşinyanı kim "hürdürür"?

Paşka, yeni Nikol Paşinyan yenə Xankəndində "ağzının qatığını" dağıdıb. Nəyi var hava atıb, atlanıb-coşub. Bizi hədələyib, Qarabağın Ermənistanın tərkibində qalacağını deyib və qırılmış barmağı ilə nöqtəni qoymağı da unutmayıb. Paşka belə hesab edib ki, artıq böyük müharibə bitib və Qarabağın məsələsi də "bağlanıb". Əslində isə, qayda-qanuna görə, bu, böyük oyunun sadəcə birinci hissəsi olub. Yəni oyunun birinci hissəsi bitib. Amma bunun ikinci hissəsi də var. Hə, N.Paşinyan belə hesab edir ki, daha bunun ikinci hissəsi yoxdur və Qarabağı azərbaycanlı körpələri diri-diri şişə keçirərək, qanlarını şərab kimi içərək ələ keçiriblər və onu heç vaxt qaytarmayacaqlar. Bu, onun və erməni cəmiyyətinin düşüncəsi. Bəs biz nə düşünürük? Doğrudanmı, Qarabağ savaşının ikinci hissəsi olmayacaq? Doğrudanmı, artıq hər şey elə birinci hissədəcə həll olunub?

Hə, ilk başdan deyim ki, bu çıxışından sonra bizim bir çox politoloqlarımız, xüsusilə də, sosial şəbəkələrdəki ictimai fəallarımız N.Paşinyanın xalası, bibisi və sairə barədə əməllicə "təriflər" deməklə, onun başından böyük qələt etdiyini xor kapellası kimi ucadan səsləndirirlər. Bu, sadəcə acizlik əlamətidir, bir də siyasi savadsızlıq. Etməyin bunu, nədən? Ona görə ki, qarşındakının sənin barəndə dediklərinə tutarlı, məntilqi cavab hazırlamaq əvəzinə, ət tökən, ənənəvi və qəlib formasında iylənmiş fikirlərlə cəmiyyətdə "ürək bulandırmaq" və məyusluq yaratmaq bizi daha çox "batırır", nəinki N.Paşinyanı. Axı niyə anlamırıq ki, bu adam bizim düşmənimiz olan ölkənin hökumət rəhbəridir. Bu söyüşlərin və qarğışların əvəzinə oturub əməllicə baş sındırmaq, düşmənlə informasiya müharibəsi üçün gözəl planlar hazırlasaq yaxşı olmazmı? Axı onun nəsli barədəki söyüş və hədəər hava balonu kimi uçub gedir, nə onun xalasına çatır, nə də bibisinə. Bizə də ancaq bu cür söyüşlərlə "nasosumuzu" boşaltmaq qalır, başqa heç nə. İçimizdəki erməni nifrətini də bu cür əttökən və savadsız söyüşlərlə bitirib, elə əsl Paşinyana kömək etmiş oluruq. Başqa heç nə!

Bir də ki, Paşinyanları, Sarkisyanları kimin "hürdürdüyünü" onlardan daha çox biz yaxşı bilirik axı. Bu erməniləri Qafqazda bizə qarşı yüz illərdir ki, "hürdürürlər". Bu, rus çarları və qərb xristian gücləri tərəfindən onların üzərinə qoyulmuş tarixi missiyadır, vəssalam. Yada salaq 1919-ci ilin Paris Sülh Konfransını, o vaxtı ABŞ prezidenti Vudro Vilsonu. O V.Vilsonu ki, ermənilər üçün az qala ABŞ-ı fəda etməyə hazır idi. Buyurun, mənə inanmırsınızsa, Vikipediyadakı mətni olduğu kimi oxuyun: "28 may 1919-cu ildə Əlimərdan bəy Topçubaşovun başçılıq etdiyi Azərbaycan nümayəndə heyəti Paris sülh konfransında ABŞ prezidenti Vudro Vilsonla görüşərək Xalq Cümhuriyyətinin tanınmasını xahiş edib. Antitürk və ermənipərəst mövqeyi ilə seçilən Vilson bu xahişi rədd edib.

Ermənistanın Türkiyəyə ərazi iddiaları ABŞ prezidenti Vudro Vilsonun hamiliyi ilə güclü surətdə dəstəklənirdi. V.Vilson Ermənistan üzərində ABŞ-ın mandatını rəsmiləşdirmək üçün Senata müraciət etmişdi. Lakin 1920-ci il iyunun 1-də ABŞ Senatı 23 səs lehinə, 52 səslə əleyhinə olmaqla prezidentin arzusunu rədd etdi." Buyur, keçən əsrdə erməniləri kim "hürdürürdüsə", iki-üç gün əvvəl Xankəndidə N.Paşinyanı da həmən onların nəvə-nəticələri "hürdürdü"!.

Axı əziz qardaş və bacılarım, o, Xankəndində Qarabağ ermənilərinin qabağında çıxış edib deyəsi deyil ki, "ay ermənilərim, gəlin yüz illər boyü çörəyini yediyimiz, suyunu içdiyimiz, ölkəsində yaşayıb adam olduğumuz azərbaycanlılara Qarabağı qaytaraq. Daha torpaq davası edib qonşularımızla düşmən kimi yaşamayaq." Bu, heç zaman mümkün deyil. Heç bir erməni siyasətçi bu qələti nəinki açıqda, heç gizlində də ürəyinə gətirməz. Yalandan özümüz-özümüzü aldatmayaq. N.Paşinyanın bu cür məsuliyyətsiz bəyanatları isə, birbaşa ona hesablanıb ki, bizim yatmış və nostaljidə olan cəmiyyətimizə silkələnmə gəlsin. Düşmən də olsa, hava atsa da, bizi ayıltmaq üçün əla seçimdir. Hə, orası bir başqa ki, N.Paşinyan belə əmin deyil ki, biz onun bu nasist fikirlərindən sonra da ayılası deyilik. Düzdür, bizi təxribata çəkir. Amma həqiqət də odur ki, erməni sənə heç vaxt öz xoşu ilə torpaq verməz. Bu xalq, yüz illərdir ki, nasizimin laylası ilə yatıb-oyanır. Türk qanına susayan sənə torpaq qaytarmaz!

# Ermənistanın məhv edilməsi zaman məsələsidir

***Ermənistanın baş naziri Paşinyanın Azərbaycanın işğal altındakı Dağlıq Qarabağ bölgəsinə növbəti qanunsuz səfəri zamanı səsləndirdiyi sərsəm bəyanatlar onun anormal durumda olduğunu nümayiş etdirir. Çünki sülh danışıqlarının aparıldığı bir zamanda Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı sərsəm iddialar səsləndirmək normal siyasətçiyə xas xüsusiyyət ola bilməz. Söhbət etdiyimiz müsahiblərimiz isə Paşinyanın Xankəndində mitinqçilər qarşısında sərsəmləməsini beynəlxalq hüquq normalarına açıq saymamazlıq kimi qiymətləndirdilər və onu sərsəm fikirlərinə görə, peşman etməyin zəruriliyini söylədilər.***

### Millət vəkili Kamilə Əliyeva: "Paşinyanın bəyanatları xəstə təxəyyülün və xəstə təfəkkürün məhsuludur "



- Paşinyan işğal altında olan Xankəndinə səfəri zamanı yenə də sayıqlayaraq, Qarabağı Ermənistan ərazisi və torpağı adlandırıb. Bu fikirlər, xəstə təxəyyülün və xəstə təfəkkürün məhsuludur. O da əvvəlki hərbi və siyasi cinayətkar rejim olan kocaryanlardan, sarkisyanlardan heç nə ilə fərqlənmir, əksinə, bəzi hallarda hətta, onlardan da "qabağa" keçir, bütün hədləri və sədləri, ədəzəni aşır. O da, digərləri də bilsinlər və qulaqlarından sırğa etsinlər ki, Dağlıq Qarabağ Azərbaycanındır, qədim türk yurdudur, Azərbaycanın tarixi torpağıdır və ayrılmaz hissəsidir. Təəssüf ki, Ermənistanın oyunbazlıqlarına, təcavüzkarlıq və işğalçılıq əməllərinə hələ də seyrçi, laqeyd münasibət bəslənilir. Halbuki BMT başda olmaqla, bütün beynəlxalq qurumlar, beynəlxalq ictimaiyyət Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanıyır və dəstəkləyir. Odur ki, Azərbaycan dövləti və xalqı Ermənistanın işğalçılıq və qanlı etnik təmizləmə vasitəsilə ölkəmizin ərazi bütövlüyünü pozması ilə heç vaxt barışmayacaq və Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi cəhdlərinə imkan verməyəcək. Həmçinin, Paşinyanın Azərbaycanın işğal olunmuş ərazilərini Ermənistan adlandırması, Ermənistanla qondarma rejimin birləşdirilməsinə çağırış etməsi bu ölkənin, onun rəhbərliyinin, siyasi elitasının əsl məqsədinin işğalçılıq olduğunun növbəti açıq nümayişidir. Azərbaycanın işğal olunmuş ərazilərinin ilhaqına çağırmaq beynəlxalq ictimaiyyətə, xüsusilə münaqişənin danışıqlar yolu ilə həllinə məsul olan ATƏT-in Minsk Qrupunun həmsədrlərinə hörmətsizlik və məsuliyyətsizlik kimi qiymətləndirilməlidir. Ermənistan baş nazir səviyyəsində beynəlxalq hüququn norma və prinsiplərini, BMT Nizamnaməsini, Helsinki Yekun Aktını ayaq altına atır, təhqir edir və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə ATƏT-in Minsk Qrupunun həmsədrlərinin vasitəçilik etdiyi danışıqlar prosesini məhv edir. Bundan sonra danışıqlar prosesinin gələcəyi barədə suala ATƏT-in Minsk Qrupunun həmsədrləri cavab verməlidir. Onlar artıq laqeyd, biganə, etinasız münasibətlərinə, davranışlarına son qoymalıdırlar, Ermənistanın və onun fitnəkar siyasətçilərinin, rəhbərlərinin, o cümlədən, Paşinyanın ağlını başına gətirməlidirlər.

### "Palitra" qəzetinin baş redaktoru Namiq Əliyev: "Ermənistan çox zəifdir"



- Ermənistanın baş naziri Nikol Paşinyanın Dağlıq Qarabağın ilhaqı ilə bağlı son açıqlamasına bir neçə aspektdən yanaşmaq olar. Əvvəla, sual yaranır ki, Paşinyan "Dağlıq Qarabağın Ermənistan olması" barədə açıqlamasını niyə İrəvanda yox, məhz Xankəndidəki mitinqdə dilə gətirdi? Bəllidir ki, onun hakimiyyətə gəlməsindən sonra Dağlıq Qarabağ mənşəli bir çox məmurlar, yüksək rütbəli zabitlər işdən qovulub, hətta bəziləri həbs edilib. Nəticədə, rejimlə rəsmi İrəvan arasında ciddi narazılıq yaranıb, bu baxımdan, baş nazirin mövqeyi Dağlıq Qarabağda çox zəifdir. Odur ki, Paşinyan özünü separatçıları daha çox dəstəkləyən, bu məsələdə güzəştə getməyən, barışmaz adam kimi göstərmək üçün belə bəyanat verir. Digər tərəfdən də, bu çıxışı ilə özü-özünü ifşa edir. Xatırlayırsınızsa, bir qədər əvvəl deyirdi ki, o, Dağlıq Qarabağ adından danışa bilməz! Deməli, onun əvvəlki açıqlamaları yalan və cəfəngiyatdan başqa bir şey deyilmiş. Azərbaycan tərəfi dəfələrlə bildirib ki, Ermənistan danışıqları uzadır, işğalçı siyasətindən əl çəkmək istəmir, beynəlxalq ictimaiyyəti aldadır və s. Paşinyanın son açıqlaması Azərbaycan rəsmilərinin bu fikirlərinin doğru olduğunu sübut etdi. Paşinyanın bəyanatı ATƏT-in Minsk Qrupunun fəaliyyətinə də hörmətsizlikdir. Azərbaycan cəmiyyəti haqlı olaraq, ATƏT-in Minsk Qrupu həmsədrlərinin bu açıqlamaya münasibətini gözləyir. Təbii ki, həmsədrlər Dağlıq Qarabağın ilhaqı ilə bağlı beynəlxalq hüquqa zidd olan belə bəyanatı qəbul edə bilməzlər. Digər tərəfdən, aprel döyüşləri göstərdi ki, Azərbaycan xalqı Dağlıq Qarabağın və ətraf rayonların işğalı ilə heç vaxt barışmayacaq və barışa da bilməz. Sadəcə, daimi olaraq, hərbi gücümüzü artırmalı, sabitliyi qorumalı, dövləti möhkəmləndirməli və tarixin sürprizlərinə hazır olmalıyıq.

**GÜLYANƏ**

## Əfqanıstandakı sülhməramlılarımızın bir qrupu Azərbaycana qayıdıb



NATO-nun Əfqanıstanda həyata keçirdiyi "Qətiyyətli Dəstək" missiyasının tərkibində fəaliyyət göstərən Azərbaycan Ordusunun bir qrup sülhməramlısı plana uyğun olaraq rotasiya qaydasında Bakıya qayıdıb. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Ordusunun Əfqanıstandakı sülhməramlı missiyası 2002-ci il noyabrın 20-dən başlayıb. Hazırda Azərbaycan Ordusunun 120 hərbi qulluqçusu, 2 hərbi həkimi və 6 qərargah zabiti Əfqanıstandakı missiyada iştirak edir.

# Azərbaycanla ultimatum dilində danışmaq olmaz

## *Paşinyan Qarabağın işğalını rəsmən ETİRAF ETDİ*

***Heç şübhəsiz, hər bir dövlətin aparıcı ideologiyası onun ərazi bütövlüyünə əsaslanır. Məhz bu baxımdan da Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ölkəmizin bir nömrəli problemidir. Eyni zamanda, sözsüz ki, hər bir ölkənin inkişafı və xalqın təhlükəsizliyi o ölkənin prezidentinin həyata keçirdiyi uğurlu siyasətin nəticəsi ilə bağlıdır. Bu gün Azərbaycan xalqı Prezident İlham Əliyevə böyük inam bəsləyir və dövlət başçısının həyata keçirdiyi siyasəti tam dəstəkləyir. Çünki Azərbaycan əhalisi Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasətin nəticəsini öz firavan və təhlükəsiz həyatında görür və ona görə də əhali Prezidentə inanır və dövlət başçısının ətrafında sıx birləşib. Eyni zamanda, Azərbaycan dünyanın ən sabit və təhlükəsiz ölkələrindən biridir. Əlbəttə bu sabitliyə və təhlükəsiz həyat şəraitinə Prezident İlham Əliyevin apardığı uğurlu siyasət nəticəsində nail olunub. Xalq da bunu görür və doğru seçim edir.***




Təəssüf doğuran odur ki, Ermənistanın baş naziri Paşinyan populist çıxışları və savadsız siyasi baxışları ilə elə zənn edir ki, bu yolla nəyəsə nail ola biləcək. Bu isə bir daha göstərir ki, düşmən ölkə Azərbaycana işğala son qoymaq üçün savaş yolundan başqa bir yol buraxmır. İndiyə qədər Azərbaycan tərəfi gözləyirdi ki, beynəlxalq qurumların təzyiqi ilə Ermənistan rəhbərliyi işğal olunmuş torpaqlarla bağlı öz "siyasətində", danışıqlar prosesində daha konstruktiv mövqe tutacaq. Amma bu baş vermir. Əksinə, yeni rəhbərlik də əvvəlki rəhbərlər kimi, qeyri-konstruktiv mövqe nümayiş etdirir. Ona görə də Azərbaycan Prezidenti İlham Əliyev Qarabağla bağlı öz qətiyyətli mövqeyini bildirib və bu gün də bildirir.

### Paşinyanın növbəti sərsəm siyasəti

Məhz 20 ildən çoxdur ki, davam edən Dağlıq Qarabağ münaqişəsinin həlli prosesi getdikcə bir qədər də dalana dirənməkdədir. Səbəb isə N.Paşinyanın Ermənistanın əvvəlki prezidenti Serj Sarkisyandan fərqlənməyən və heç bir məntiqə söykənməyən və hüquqi əsası olmayan növbəti hərəkəti və populist çıxışlarıdır. Belə ki, avqust ayının 5-də "Erməni Oyunları"nın açılış mərasimində iştirak edən Paşinyanın sərsəm çıxışı erməni xalqınnı da hiddətinə səbəb olub. Xüsusilə də, görüş zamanı erməni xalqına gəldiyi gündən verdiyi vədləri yenidən bir daha təkrarlaması olub. Politoloqların fikrinə görə, Paşinyan ermənilər açıq-aşkar ələ saldığı görünür. Belə ki, Nikol Paşinyan Xankəndidə deyib: 2050-ci il üçün Ermənistanın əhalisini 5 milyon nəfərə çatdırmalıyıq, 1,5 milyon iş yeri yaratmalıyıq, Ermənistanın ümumi daxili məhsulunu 15 dəfə artırmalıyıq, 5 texnoloji şirkət yaratmaqla 10 milyard dollar gəlir əldə etməliyik, orta aylıq əmək haqqını 7 dəfə, səhiyyənin maliyyələşdirməsini 20 dəfə artırmalıyıq, hər il 15 milyon turistin gəlişini təmin etməliyik, Ermənistan futbol üzrə dünya çempionu olmalıdır.

Göründüyü kimi, bütün istəkləri gülünc doğurur, ancaq sonuncu istəyi ilə lap gül vurub.

Digər bir məqam isə, Paşinyanın Xankəndində olmasının əsas səbəbi isə, gələn il Qarabağda keçiriləcək prezident seçkisinə daha çox diqqət ayırmaq və ona qarşı əksinqilabın qarşısını vaxtında almaq idi. Və "Qarabağ Ermənistanındır" ifadəsinə yer verən baş nazir burada da öz tərəfdarlarının sayını artırmağı qarşısına məqsəd qoyur. Paşinyan da planını həyata keçirmək üçün həm Qarabağ, həm də Ermənistanda "cadugər ovu"na başlayıb və özünə qarşı olan ən adi tənqidləri belə "qaranlıq qüvvələr"ə bağlamağa çalışır. Ermənistan, ya da Qarabağda əslində mövcud olmayan "beşinci kolon"u axtarır. Yəni Paşinyan Qarabağdakı prosesləri İrəvandan asanlıqla idarə etmək üçün ən uyğun bir şəxsin başçı olmasını istəyir

### Paşinyanın Xankəndidəki bəyanatının pərdəarxası məqamları

"Baş nazir Nikol Paşinyanın Ermənistanın işğalı altında olan Azərbaycan torpaqlarına səfəri zamanı Xankəndində keçirilən aksiyada səsləndirdiyi fikirlər bir neçə gündür ki, ölkə KİV-də müzakirə olunur. Medianın əsas diqqəti Paşinyanın Azərbaycanın işğal altındakı ərazilərinin ilhaqı barədə sərsəmləmələrinə yönəltməsi də təbii qəbul olunmalıdır. Çünki bizim üçün prioritet məsələ ərazilərimizin erməni işğalından azad edilməsidir". Bunu politoloq Elçin Mirzəbəyli deyərək bildirib ki, erməni baş nazirin çıxışında diqqət çəkən və bir sıra məqamların gün işığına çıxarılmasına imkan yaradan istiqamətlər də var: "Paşinyanın Xankəndindəki çıxışının ana xəttini separatçı rejimin başına öz nümayəndəsinin gətirilməsi perspektivi təşkil edir. Erməni baş nazirin konsensusa gəlinməli olan məsələlərlə bağlı söylədikləri də bunu sübuta yetirir. Məsələn, Paşinyan hesab edir ki, daxili proseslərdə güc amilindən imtina edilməlidir. Bu separatçı ərazidə keçirilməsi nəzərdə tutulan qondarma seçkilərdə sabiq prezidentlər - Köçəryan və Sarkisyana məxsus hərbi qruplaşmaların silahlı müqavimət göstərə biləcəkləri ehtimalından doğan narahatlığın ifadəsi kimi də qəbul oluna bilər. Çünki Nikol qondarma seçkilərin məhz onun nəzarəti altında keçirilməsini istəyir. Bu amil baş nazirin çıxışında da öz əksini tapıb. Paşinyan deyir ki, "Ermənistan öz növbəsində "Qarabağ xalqı"nın öz azad iradəsini ifadə etməsinin qarantı kimi çıxış etməli, bununla "legitim hakimiyyət"in formalaşmasına zəmanət verməlidir". Göründüyü kimi, erməni baş nazirin bu fikirlərində "seçki"lərin onun nəzarəti altında keçiriləcəyi açıq-aşkar bildirilir. Paşinyan bu günədək separatçı bölgədə keçirilən "seçki"lərin, o cümlədən, separatçıbaşı Bako Saakyanın da "legitim" olmadığını diqqətə çatdırmağı da unutmur və bununla da əslində Ermənistandakı Qarabağ klanına ultimatum verir".

### Paşinyanın Xankəndidə etdiyi çıxışı onun həqiqi simasını üzə çıxarmış oldu

Bu həqiqətən də belədir. Çünki bu ATƏT-in Minsk Qrupunun həmsədrlərinin vasitəçiliyi ilə aparılan danışıqlar prosesinə böyük zərbədir. Ermənistanın siyasi rəhbərinin uzun illərdir ki, aparılan danışıqların predmetinə tam zidd olan bu bəyanatı, elə Ermənistanın özünün səsləndirdiyi, "münaqişənin yalnız sülh yolu ilə həlli" çağırışına uyğun gəlmir. N.Paşinyanın Xankəndidə etdiyi çıxışı onun həqiqi simasını üzə çıxarmış oldu.

Bütün beynəlxalq ictimaiyyət işğal olunmuş Dağlıq Qarabağ və ətraf bölgələrimiz də daxil olmaqla Azərbaycanın beynəlxalq tanınmış sərhədləri çərçivəsində suverenliyi və ərazi bütövlüyünü tanıyır. Və Paşinyan kimi sərsəm rəhbərlər bilməlidir ki, Azərbaycan öz ərazilərinin işğalı ilə heç zaman barışmayacaq və işğal olunmuş torpaqlarımızın azad olunması və öz evlərindən zor gücünə didərgin salınmış məcburi köçkünlərimizin bu torpaqlara geri qayıtmasını təmin etmək üçün var gücü ilə səylərini davam etdirəcək.

Paşinyanın Xankəndinə səfəri və ölkədə yaranmış növbəti gərginlik bir daha onu deməyə əsas verir ki, xalq Sarkisyan rejimindən yaxa qurtarmaq istədiyi kimi, Paşinyandan da yaxa qurtarmağa çalışır. Paşinyan deyir ki, Dağlıq Qarabağdan çıxan azərbaycanlılar Azərbaycan vətəndaşlığını qəbul ediblər, Azərbaycan Prezidentinin seçilməsində iştirak edirlər və buna görə də Azərbaycanın dövlət başçısı onların adından danışa bilər. Əgər Paşinyanın dediyi kimi "DQR" müstəqil tərəfdirsə və Ermənistanın onu təmsil etmək haqqı yoxdursa o zaman nəyə görə Dağlıq Qarabağda Ermənistanın hərbi hissələri yerləşir və Ermənistan vətəndaşları orada hərbi xidmət keçir? Eyni zamanda, nə üçün Dağlıq Qarabağ faktiki olaraq Ermənistan ordusu tərəfindən qorunur? Bu da əsas faktordur ki, Dağlıq Qarabağ dünya birliyi tərəfindən tanınan Azərbaycan ərazisidir və millətindən və dinindən asılı olmayaraq orada yaşayan insanlar da Azərbaycan vətəndaşlarıdır. 25 ildir öz yurd-yuvalarından didərgin düşən bu insanlar harada və hansı statusda yaşamalıydılar və Paşinyan bu insanların hansı proseslərin qurbanı olduğunu bilmir? Bilir, görünür özünü sərsəm yerə qoyur.

### Paşinyan Qarabağın işğalını rəsmən ETİRAF ETDİ

Bu yerdə ən mühüm məqam isə, Nikol Paşinyanın Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsində keçirdiyi mitinqdə işğalçı olduqlarını etiraf etməsidir. "Dağlıq Qarabağ Ermənistanın ayrılmaz hissəsidir" deyən Paşinyan mitinqdə çıxışına "Miatsum" (Azərbaycan torpaqları hesabına "birləşmiş" erməni dövlətinin yaradılması ideyası şüarları ilə başlaması olub: "Bütün dünyanın qürurlu ermənilərini salamlayıram və sözlərimə 1988-ci ildə bu Dirçəliş meydanını silkələyən "Miatsum", "Miatsum" şüarı ilə başlamaq istəyirəm".

Politoloqların sözlərinə görə, Paşinyanın bu etirafı etməsinin arxasında isə ciddi səbəblər var, xüsusilə onun "Miatsum" şüarı iki hədəf yönəlib: Taxtını qorumaq: Paşinyanın küçə inqilabı ermənilərə heç nə vermədi, əksinə ölkədə sosial vəziyyət ağırlaşdı, iqtisadi gəlirlər azaldı, iş yerlərində kütləvi ixtisarlar başlandı, hətta inqilabdan önəcki dövrlə müqayisədə intiharların sayı 20 faiz çoxaldı. Sonuncu dəfə İcəvanda "çörəyi ağacdan çıxan" işçilərə qarşı polis zorakılığı yeni rejimin köhnə xuntadan heç nə ilə fərqlənmədiyini göstərdi. Paşinyanın erməni xalqına vəd etdiyi rifahı gerçəkləşdirə bilmir və mütəmadi olaraq yüksələn etiraz səsləri onun taxtını laxladır. Və o, çıxış yolu kimi ən yaxşı bacardığı populizmə əl atır. Miatsum" şüarı ilə girməsi və "Qarabağ Ermənistanın ayrılmaz hissəsidir" şüarını dilə gətirməsi bütün ermənilərin dəstəyini almaq məqsədinə xidmət edir. Hərçənd bu, "Miatsum" şüarının gerçək olması, yəni Qarabağın Ermənistana birləşdirilməsi ilə nəticələnməyəcək. Sadəcə olaraq, Nikol bu şüarla separatçı rejimi ələ keçirmək üçün gələcək "seçkilərdə" irəli sürdüyü oyunçulara dəstəyi təmin etməyi planlaşdırır.

N.Paşinyan anormal açıqlaması ilə həm laxlayan taxtını xilas etmək, həm verdiyi sosial-iqtisadi vədləri unutdurmaq, həm də "Qarabağ klanı"nı əzmək gedişi edir. Hərçənd, bununla Ermənistanın illərdir irəli sürdüyü "Qarabağın ayrıca respublika olması" tezisini də alt-üst etdi. Bu fakt Paşinyanın çıxılmaz vəziyyətdə olduğunu təsdiqləyir və danışıqlar masasında rəsmi Bakının əlini gücləndirir. İndi növbə beynəlxalq ictimaiyyətin, xüsusilə münaqişənin həlli ilə bağlı aparılan danışıqlardan məsul olan ATƏT-in Minsk Qrupu həmsədrlərindədir. Onlar erməni baş nazirin bu etirafına reaksiya verməli və danışıqların növbəti raundunda işğala son qoymaq istiqamətində fəal işləməlidirlər. Əks-təqdirdə, Azərbaycan Ordusu kazarmaları yenidən tərk edəcək. Çünki Nikolun Xankəndidəki etirafları yeni müharibəyə zəmin yaratdı...

**A.SƏMƏDOVA**

# Naxçıvan bu gün: Heydər Əliyev siyasi xəttinə sədaqət, dövlətçilik, təhlükəsizlik, sabitlik və tərəqqi

*Fəal yaradıcı gücə malik olan inkişafın Heydər Əliyev modeli Naxçıvan nümunəsində*



***Bu gün ölkəmizin, o cümlədən muxtar respublikamızın sosial-iqtisadi, elmi və mədəni həyatında əldə edilən böyük nailiyyətlərin əsasında fəal yaradıcı gücə malik olan Heydər Əliyev milli dövlətçilik konsepsiyası, inkişafın Heydər Əliyev modeli dayanır. Ulu Öndərimizin müəyyənləşdirdiyi inkişaf strategiyasının reallaşdırılması sayəsində 20 ildən artıqdır ki, Naxçıvan Muxtar Respublikasının tərəqqisi ilə fəxr edir, qürurlanırıq. Bütün bunlar həm də nümunəvi vətənpərvərliyin, dövlətçiliyə dərin sədaqətin, sabitliyin, sosial-iqtisadi yüksəlişin təmin edilməsinin, ən əsası isə rəhbər qayğısının nəticəsidir.***



### Tərəfdaş ölkələrlə əməkdaşlıq genişlənir

Muxtar respublikada bütün sahələr üzrə innovativ yeniliklərin tətbiq olunması, məqsədyönlü islahatların, mühüm infrastruktur layihələrinin, daha parlaq gələcəyə hesablanmış dövlət proqramlarının reallaşdırılması qədimliyi, mədəni zənginliyi, strateji əhəmiyyəti ilə seçilən diyarımızı cazibə mərkəzinə çevirib. Buna görə də Azərbaycanın tərəfdaşı olan ölkələr muxtar respublika ilə iqtisadi-ticarət, mədəni və humanitar əlaqələrini daha da genişləndirməyə böyük maraq göstərirlər.

İyulun 1-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun Ukraynanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Vladislav Kanevski ilə görüşü zamanı bu məsələlər xüsusilə qeyd olunub.

Ali Məclisin Sədri blokada şəraitində yaşamasına baxmayaraq, Azərbaycanın Naxçıvan Muxtar Respublikasında tələbatın yerli istehsal hesabına ödənildiyini və ərzaq təhlükəsizliyinin təmin olunduğunu diqqətə çatdırıb. Naxçıvan Muxtar Respublikası ilə Ukrayna arasında iqtisadi-ticarət əlaqələrinin həcminin artan dinamika ilə davam etdiyini bildirən Ali Məclisin Sədri ali və ümumtəhsil məktəbləri arasındakı qarşılıqlı əməkdaşlıqdan danışıb, əlaqələrin genişləndirilməsinin əhəmiyyətini vurğulayıb.

Sərhəddə ucaldılan 7 mərtəbəli 48 mənzilli bina düşmənə göz dağı, dosta sevincdir

Bu gün Heydər Əliyev siyasi xəttinə sədaqət Sədərək rayonunda da davamlı inkişafı təmin edib, Heydərabad qəsəbəsində və kəndlərdə quruculuq işlərinin miqyası genişlənib, məskunlaşma artıb. Ötən əsrin 90-cı illərində işğalçı ölkənin Sədərəyə hücumu zamanı dağılan evlər yenidən qurulub, gözəl binalar tikilib. Muxtar respublikada əhalinin rahat yaşayışı, mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində aparılan kompleks işlərin tərkib hissəsi olaraq Heydərabad qəsəbəsində 7 mərtəbədən ibarət 48 mənzilli yeni yaşayış binası inşa edilib. Bu, muxtar respublikanın inkişafının, dövlətin vətəndaşlara qayğısının, ən əsası isə dövlət-xalq birliyinin göstəricisi, düşmənə gözdağı, hər bir naxçıvanlı üçün isə sevincdir.

İyulun 2-də - ümummilli lider Heydər Əliyevin ölkəmizə rəhbərliyinin 50 illiyi ərəfəsində yeni yaşayış binası istifadəyə verilib.

Açılış tədbirində iştirak edən Ali Məclisin Sədri çıxışında dövlətimiz və cəmiyyətimiz üçün əhəmiyyətli bir məsələyə toxunaraq qeyd edib ki, yeni yaşayış binasının ilk sakinləri dövlət qarşısında xidməti borclarını layiqincə yerinə yetirmiş vətəndaşlardır. Həmin şəxslərin mənzillərlə təmin olunması həm də dövlətin bu kateqoriyadan olan insanlara qayğısının təzahürü, eyni zamanda, digər vətəndaşlar üçün də nümunədir.

Həmin gün Sədərək rayonunda 1 şəhid ailəsinə, sağlamlıq imkanları məhdud 2 Azərbaycan Vətən müharibəsi iştirakçısına və Çernobıl Atom Elektrik Stansiyasında baş vermiş qəzanın aradan qaldırılmasında iştirak edən 1 nəfərə yeni mənzillərin təqdim olunması göstərilən dövlət qayğısının daha bir ifadəsidir.

Ali Məclisin Sədri mənzillə təmin olunanları təbrik edib, onlara rahat və firavan həyat arzulayıb, mənzillərin orderlərini təqdim edib.

Ali Məclisin Sədri həmin binada dövlət qurumları və xidmət mərkəzi üçün yaradılan şəraitlə də tanış olub.

Sədərək Rayon Su Monitorinq Laboratoriyası yarana biləcək risklərin qarşısını almağa imkan verir

Muxtar respublikada ətraf mühitin mühafizəsi, təbii sərvətlərdən səmərəli istifadə edilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir, bu sahədə dövlət proqramları uğurla icra olunur, əhalinin sağlam ekoloji mühitdə yaşamasına xüsusi diqqət yetirilir. Görülən tədbirlərin davamı olaraq Sədərək rayonunun Heydərabad qəsəbəsində Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində Sədərək Rayon Su Monitorinq Laboratoriyası yaradılıb, müasir avadanlıqlarla təchiz edilmiş yeni inzibati bina tikilib. İyulun 2-də həmin laboratoriya istifadəyə verilib. Ali Məclisin Sədri açılış tədbirində iştirak edib, Sədərək rayonunda ölkə əhəmiyyətli sahənin - Su Monitorinq Laboratoriyasının istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edib.

Ali Məclisin Sədri laboratoriyada monitorinqlərin vaxtında və düzgün aparılacağına əminliyini bildirib, mütəxəssis hazırlığının diqqətdə saxlanılması, Səhiyyə Nazirliyi ilə qarşılıqlı fəaliyyət göstərilməsi, ayda bir dəfə monitorinq nəticələri barədə məlumatların hazırlanması və mətbuata təqdim olunması barədə tapşırıqlar verib.

Laboratoriyanın fəaliyyətə başlaması, həqiqətən də ölkəmiz və diyarımız üçün mühüm bir hadisədir. Tədbirdə çıxış edən Ali Məclis Sədrinin də qeyd etdiyi kimi, qanunların işləmədiyi işğalçı ölkədə istismar müddəti başa çatmış Atom Elektrik Stansiyasının fəaliyyət göstərməsi bölgə üçün risk yaradır. Çünki muxtar respublika işğalçı ölkə ilə sərhəddə yerləşir. Müasir laboratoriyanın qurulması sərhədlərimiz daxilində tədbirləri vaxtında görməyə və qərar qəbul etməyə imkan verəcəkdir. Su monitorinqləri zamanı işğalçı ölkədən keçməklə muxtar respublika ərazisində axan çaylarda çirklənmə qeydə alındıqda beynəlxalq təşkilatlar dərhal məlumatlandırılacaqdır. Yəni, laboratoriyanın Ermənistanla sərhəd yaşayış məntəqəsində yerləşməsi ortaya çıxacaq problemlərə vaxtında müdaxilə etməyə imkan verəcəkdir. Bura həm də dünyada yerləşən su monitorinqi laboratoriyalarının xəritəsinə daxil edilib. Bu isə düşmən tərəfdən hər hansı ekoloji çirklənmə zamanı beynəlxalq ictimaiyyətin məlumatlandırılmasında böyük əhəmiyyət kəsb edir.

Muxtar respublikamızda gömrük infrastrukturunun yenidən qurulması istiqamətində həyata keçirilən tədbirlərin davamı olaraq Sədərək Gömrük İdarəsi üçün yeni kompleks inşa olunur.

İyulun 2-də Ali Məclisin Sədri kompleksin inşası ilə maraqlanıb,



yeni tikilinin gömrük xidmətinin tələblərinə uyğun qurulması və işıqlandırılması, keyfiyyətə ciddi diqqət yetirilməsi, təcili tibbi yardım və yangından mühafizə xidmətlərinin təşkil olunması barədə tapşırıqlar verib.



## Kəngərli rayonunda da icbari tibbi sığorta tətbiq olunur

Muxtar respublikada səhiyyənin inkişafı istiqamətində həyata keçirilən tədbirlər, müasir infrastrukturun yaradılması əhaliyə göstərilən tibbi xidmətin səviyyəsini xeyli yüksəldib. Həyata keçirilən səhiyyə islahatlarının ən mühüm cəhətlərindən biri isə muxtar respublikada icbari tibbi sığortanın tətbiqidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Fərman və Sərəncamına uyğun olaraq 2017-ci il iyulun 1-dən Sədərək, 2019-cu il iyunun 1-dən isə Şərur rayonlarında icbari tibbi sığortanın tətbiqinə başlanılıb. Bu



istiqamətdə işlər Kəngərli rayonunda da davam etdirilib. Həyata keçirilən kompleks tədbirlər burada da icbari tibbi sığortanın tətbiqinə imkan verir. İyulun 5-də rayonda icbari tibbi sığortanın tətbiqi ilə bağlı tədbir keçirilib.

Ali Məclisin Sədri tədbirdə iştirak edib, icbari tibbi sığortanın tətbiqi sahəsində işlərin başa çatması münasibətilə kollektivi və sakinləri təbrik edib. Ali Məclisin Sədri deyib: "İcbari tibbi sığorta vacib sahədir. Çünki səhiyyə müəssisələrinə müraciət edən insanlar lazımi səviyyədə tibbi xidmət almadıqda xarici ölkələrə üz tuturlar. Bu da ölkəmizin imicinə mənfi təsir göstərir, eyni zamanda maliyyə vəsaitləri xaricə axır. Lakin icbari tibbi sığortanın tətbiqi insanların keyfiyyətli tibbi xidmətlə təmin olunmasına imkan verəcəkdir. Kəngərli rayonunda da icbari tibbi sığortanın tətbiqi üçün dövlətimiz tərəfindən vəsait ayrılmış, müasir tibbi avadanlıqlar alınaraq quraşdırılmışdır. Artıq muxtar respublikanın üç rayonunda icbari tibbi sığorta uğurla tətbiq olunacaqdır".

İyulun 5-də Kəngərli rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı müşavirə keçirilib.

Ali Məclisin Sədri avqustun 1-dən rayonda icbari tibbi sığortanın tətbiq edilməsi ilə bağlı müvafiq tapşırıqlar verib, icbari tibbi sığortanın tətbiq olunacağı növbəti bölgəmizin Şahbuz rayonu olduğunu qeyd edib. Eyni zamanda, bu istiqamətdə görüləcək işlərin ilin sonunadək başa çatdırılması ilə bağlı əlaqədar qurumlara tapşırıqlar verib.

## Naxçıvan Muxtar Respublikasının təhlükəsizliyi təmin olunub

Bu gün qloballaşan dünyada gedən sürətli dəyişikliklər şəraitində ayrı-ayrı dövlətlər və bütövlükdə bəşəriyyət münaqişələrin, terrorçuluğun, transmilli mütəşəkkil cinayətkarlığın artması, kütləvi miqrasiya, ətraf mühitin çirklənməsi, ərzaq, enerji problemləri və təhlükəsizliyi, separatçılıq, etnik, dini və siyasi ekstremizmin yayılması kimi faktlarla üzləşir. Bu amillər hər bir dövlətin prioritetləri, təhlükəsizliyə qarşı risklərin müəyyənləşdirilməsi, həmin risklərin önlənməsi və aradan qaldırılması üzrə adekvat tədbirlərin həyata keçirilməsini zəruri edir. Bu mənada, xalqa və dövlətə sədaqətlə xidmət edən, milli maraqlarımızın və mənafelərimizin keşiyində layiqincə dayanan, muxtar respublikamızın təhlükəsizliyi əleyhinə yönəlmiş təhdidlərin qarşısının alınmasında əzmkarlıq nümayiş etdirən Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidməti və Xarici Kəşfiyyat Xidməti sabitliyin, qanunçuluğun, hüquq qaydalarının etibarlı təminatçıları kimi çıxış edən əhəmiyyətli dövlət orqanlarıdır. Sovetlər Birliyi dövründə muxtar respublikanın təhlükəsizlik orqanları çətin şəraitdə fəaliyyət göstərsələr də, bu gün onların fəaliyyətinin təşkili və maddi-texniki bazalarının gücləndirilməsi qarşıya qoyulmuş vəzifələrin uğurla yerinə yetirilməsinə imkan verir. Bütün bunların nəticəsidir ki, muxtar respublikada təhlükəsizlik təmin olunub.

Bu gün xüsusi xidmət orqanlarının uğurlu fəaliyyətinin daha da genişləndirilməsi qarşıda duran əsas vəzifələrdəndir. İyulun 9-da Dövlət Təhlükəsizliyi Xidmətində "Naxçıvan Muxtar Respublikasında təhlükəsizliyin təmin olunması sahəsində görülən işlər və qarşıda duran vəzifələr barədə" keçirilən müşavirə də bu məsələlərin dövlətimizin daim diqqət mərkəzində olduğunu göstərir.

Müşavirədə iştirak edən Ali Məclisin Sədri Dövlət Təhlükəsizliyi Xidmətinə və Xarici Kəşfiyyat Xidmətinə xarici dövlətlərin xüsusi xidmət orqanlarının, cinayətkar qrupların və ayrı-ayrı şəxslərin dövlət müstəqilliyinə, ərazi bütövlüyünə, konstitusiya quruluşunun əsaslarına, iqtisadi, elmi-texniki, müdafiə potensialına və digər milli maraqlara zərər vurulmasına yönəlmiş kəşfiyyat, terror-təxribat və digər pozuculuq fəaliyyətinin vaxtında aşkarlanması, real və potensial təhdidlərin proqnozlaşdırılması, adekvat tədbirlər görülməsi, düşmən ölkənin sərhəddəki hərbi fəaliyyətinin nəzarətdə saxlanılması və bu kimi digər mühüm məsələlərlə bağlı müvafiq tapşırıqlar verib, bu vəzifələrin icrasında onlara uğurlar arzulayıb.

Sonra Ali Məclisin Sədri Dövlət Təhlükəsizliyi Xidmətinin kitabxanasında yaradılan şəraitlə maraqlanıb.

## Azərbaycan deyərkən Heydər Əliyev, Heydər Əliyev deyərkən Azərbaycan düşünürük

Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərliyə gəlişinin 50 illiyi ötən ay ölkəmizdə, o cümlədən muxtar respublikamızda mühüm tarixi hadisə kimi müxtəlif tədbirlərlə qeyd olunub. Bu çərçivədə ölkəmizin 50 fəal gəncinin iştirakı ilə "Heydər Əliyev siyasi məktəbini öyrənirik" Gənc Liderlər Proqramı keçirilib.

İyulun 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov "Heydər Əliyev siyasi məktəbini öyrənirik" Gənc Liderlər Proqramı çərçivəsində muxtar respublikaya səfər edən gənclərlə görüşüb.

Ali Məclisin Sədri gəncləri salamlayıb, səfərin təşkilatçılarına təşəkkürünü bildirərək deyib: "Tarixdə elə şəxsiyyətlər var ki, onların həyat yolundan danışmaq üçün bütöv bir xalqın, bütöv bir ölkənin tarixindən danışmaq lazımdır. Ulu öndər Heydər Əliyev belə şəxsiyyətlərdəndir.

Ardı Səh. 10

# Naxçıvan bu gün: Heydər Əliyev siyasi xəttinə sədaqət, dövlətçilik, təhlükəsizlik, sabitlik və tərəqqi

*Fəal yaradıcı gücə malik olan inkişafın Heydər Əliyev modeli Naxçıvan nümunəsində*





Əvvəli-Səh-9

Onun mənalı həyatı müstəqil Azərbaycanın siyasi bioqrafiyasına çevrilmişdir. Bu gün Azərbaycan deyərkən Heydər Əliyev, Heydər Əliyev deyərkən Azərbaycan düşünürük. Bu, səbəbsiz deyil. Azərbaycanın 50 ilə yaxın bir dövrünü əhatə edən tarixi və siyasi taleyi, bu illər ərzində ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatın bütün sahələrində baş vermiş dirçəliş, inkişaf və tərəqqi ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli Liderimizin bütün həyatını göz önünə gətirsək, keçdiyi mənalı ömür yolunu nəzərdən keçirsək, böyük ömrün yalnız bir məqsədə xidmət etdiyinin şahidi olarıq: bu - Azərbaycandır...".

### Böyük ömrün Azərbaycan naminə fəaliyyətinin altı mühüm mərhələsindən birincisi

Ali Məclisin Sədri genişməzmunlu çıxışında böyük ömrün Azərbaycan naminə fəaliyyətini altı mühüm mərhələ üzrə ətraflı təhlil edib. Muxtar respublika rəhbəri qeyd edib ki, böyük ömrün birinci mərhələsi ötən əsrin 40-cı illərindən 1969-cu ilə qədərki dövrü əhatə edir. Bu dövrdə Ulu Öndərimiz xalq üçün xidməti hər şeydən uca tutan, dövlət təhlükəsizliyi maraqlarını milli maraqlara tabe etdirməyi bacaran istedadlı hərbi xadim kimi parlayıb. Təhlükəsizlik xidməti leytenantından həmin xidmətin general-mayoru ali hərbi rütbəsinədək böyük bir yol keçən xalqımızın böyük oğlu 1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin müavini, 1967-ci ildə isə həmin Komitənin sədri təyin olunub. Azərbaycan tarixində həmin dövrədək bu idarəyə azərbaycanlı başçılıq etməmişdi. Ulu öndər Heydər Əliyev təhlükəsizlik sisteminin generalı və rəhbəri vəzifəsinə yüksələn ilk azərbaycanlı idi.

### Vətənin inkişafı naminə siyasi fəaliyyətin ikinci mərhələsi

Ali Məclis Sədri qeyd edib ki, Ümummilli Liderimizin Vətənin inkişafı naminə siyasi fəaliyyətinin ikinci mərhələsi olan 1969-1982-ci illər tarixdə şəxsiyyətin rolunun nəyə qadir olduğunun əyani ifadəsinə çevrildi. 1969-cu ilin 14 iyulu, sadəcə, respublika rəhbərinin seçim günü yox, bundan daha çox milli liderin rəhbərliyə gəlişi günü idi. Məhz bu tarixdən başlayaraq Azərbaycan ətalətin, geriliyin daşını atdı, öz tarixi taleyinin sahibi oldu. Ümummilli Liderimizin siyasi rəhbərliyinin birinci dövründə Azərbaycan başqa müttəfiq respublikaların 50 ildə keçdiyi inkişaf yolunu 14 ilə qət etdi. 14 il ərzində Azərbaycanda 250-dən çox zavod, fabrik, istehsalat sahələri tikilib istifadəyə verilib. Nəhəng işlər görülüb, kimya və neft maşınqayırma sənayesi müəssisələri tamamilə yenidən qurulub. Azərbaycan 14 milyon tona qədər neft istehsal etdiyi halda, Bakıda 30 milyon ton neft emalı gücünə malik sənaye kompleksi yaradılıb. O dövrün kiçik Azərbaycanı böyük Sovetlər Birliyinin əsas neft maşınqayırma sənayesi, üzümçülük bazası, yeganə məişət kondisionerləri istehsalı mərkəzinə çevrilib. Azərbaycanın ittifaq miqyasında xüsusi çəkisi əhəmiyyətli dərəcədə artıb. Respublikamızda istehsal olunan 350 adda məhsul dünyanın 65-dən çox ölkəsinə ixrac olunub.

### Üçüncü mərhələ - misilsiz dövlət idarəçiliyi

Böyük ömrün üçüncü mərhələsi 1982-1987-ci illəri əhatə edir. Bu dövr Heydər Əliyev şəxsiyyətinin keçmiş Sovetlər Birliyi və bütün dünya miqyasında bir daha təsdiq olunduğu dövrdür. SSRİ kimi nəhəng bir dövlətin ali rəhbərliyinə ucalmaqla xalqımızın böyük oğlu misilsiz dövlət idarəçiliyi və bacarığı nümayiş etdirdi.

Dahi şəxsiyyətin Azərbaycan naminə fəaliyyətinin dördüncü mərhələsi olan 1987-1990-cı illər Kreml rejiminin bu böyük şəxsiyyətə qarşı həyata keçirdiyi ağır təqib illəridir. Göstərilən təzyiqlərə, şəxsi əlaqələrinin, telefon danışıqlarının izlənməsinə baxmayaraq Ulu Öndərimiz sıravi vətəndaş kimi Azərbaycan üçün çalışdı, sovet dövlətinin dağılmaqda olduğu bir şəraitdə Vətəni üçün çıxış yolları axtardı, özünün zəngin dövlətçilik təcrübəsi, müdrik məsləhəti ilə Azərbaycanı düşdüyü ağır böhrandan çıxarmaqdan ötrü bütün qüvvəsini sərf etdi.

### Ulu öndər Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü

1990-1993-cü illər tarixə ulu öndər Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü kimi düşmüşdür. Görkəmli siyasi xadimin Azərbaycan naminə fəaliyyətinin beşinci mərhələsi olan bu tarixi dövr şərəfli xilaskarlıq və quruculuq missiyası ilə zəngindir. Bu missiyanın öz başlanğıcını götürdüyü yer isə Naxçıvan Muxtar Respublikası idi. Tale Ulu Öndəri qədim diyara göndərməklə Naxçıvanı işğal olunmaq, əhalisini isə qaçqın ömrü yaşamaq təhlükəsindən xilas etdi. Azərbaycanın bu qədim torpağını xilas edən dahi şəxsiyyət özünə Naxçıvan boyda abidə ucaltdı. Ulu Öndərin Naxçıvanda yenidən siyasi hakimiyyətə qayıdışı, sıravi deputat, sonralar isə Naxçıvan Muxtar Respublikasının rəhbəri kimi fəaliyyət göstərməsi bu qədim diyardan başlanan müstəqillik yolunun bütün Azərbaycan siyasi mühitində aparıcı qüvvəyə çevrilməsinə, milli dövlətçiliyin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxardı.

### Azərbaycan naminə fəaliyyətin altıncı mərhələsi - xilaskarlıq missiyası

Ali Məclis Sədri görkəmli dövlət xadiminin Azərbaycan naminə fəaliyyətinin altıncı mərhələsinin 1993-2003-cü illəri əhatə etdiyini vurğulayıb. Qeyd edib ki, həmin illər kifayət qədər tələbkar, iqtisadiyyatın dirçəldilməsi, islahatların aparılması və milli dövlət quruculuğu baxımından taleyüklü bir dövrdür. O dövrdə Ulu Öndərimiz yalnız iqtisadi sahədə yaranmış böhranı aradan qaldırmırdı, Onun taleyinə milli dövləti yenidən qurmaq, Azərbaycanı özünə qaytarmaq kimi ağır və şərəfli missiya yazılmışdı.

Bəzən Ulu Öndərin ikinci dəfə ali hakimiyyətə qayıdışı ilə Azərbaycan iqtisadiyyatını mürəkkəb və dərin böhrandan çıxarmasını Franklin Ruzveltin Amerika Birləşmiş Ştatlarında "böyük depressiya"nın nəticələrinin aradan qaldırılması üçün göstərdiyi fəaliyyətlə müqayisə edirlər. Nəzərə almaq lazımdır ki, Ulu Öndərimiz yalnız iqtisadi sahədə yaranmış böhranı aradan qaldırmırdı. Onun taleyinə milli dövləti yenidən qurmaq, Azərbaycanı özünə qaytarmaq kimi ağır və şərəfli missiya yazılmışdı.

Ali Məclis Sədri vurğulayıb ki, xalqımızın böyük oğlu ümummilli olduğu qədər də ümumbəşəridir. O, əhali sayına və ərazisinə görə kiçik bir dövlətin rəhbəri olmasına baxmayaraq, şəxsiyyət kimi tarixin böyük dühaları sırasına daxildir. Onun nəzəri, siyasi baxışları, tükənməz dövlətçilik irsi bütün dünyaya məxsusdur. Belə bir fikir var: bir xalqın böyüklüyü onun sayca və ya ərazicə böyüklüyü ilə deyil, bəşər tarixinə verdiyi qüdrətli şəxsiyyətləri ilə ölçülür. Bu mənada Azərbaycan xalqı böyük xalqdır ki, bəşər tarixinə Heydər Əliyev kimi dahi siyasətçi, qüdrətli dövlət xadimi bəxş edib. Tarixdə tək-tək şəxsiyyətlərə qismət olubdur ki, xalqının bu qədər sonsuz və dərin məhəbbətini qazana bilsin; həyatı, əməlləri öz ölkəsinin həyatı ilə bağlı olsun, vəhdət təşkil etsin. Ulu öndər Heydər Əliyevin daim xalqının milli maraqlarından çıxış etməsi, beynəlxalq sistemdə cüzi dəyişikliyi belə nəzərə almağı bacaran planetar təfəkkür sahibi olması onu nəinki iyirminci yüzilliyin, eyni zamanda, iyirmi birinci yüzilliyin də dahi şəxsiyyəti kimi bütün dünyaya tanıdıb. Amerika Birləşmiş Ştatlarında Heydər Əliyevi Corc Vaşinqton ilə, Böyük Britaniyada Uinston Çörçill ilə müqayisə edirlər. Qardaş türk xalqı onda Atatürkün, fransızlar Şarl de Qollun, almanlar Otto Bismarkın qətiyyətini görürlər. Ulu Öndərimizi bu şəxsiyyətlərlə bir sırada qoyan üstün keyfiyyət odur ki, o da sadalanan şəxsiyyətlər kimi öz xalqına arxa oldu, ölkəsinin dünya xəritəsindən silinməsinə imkan vermədi. Lakin Ümummilli Liderimizin fərqli keyfiyyətləri də var. O da bundan ibarətdir ki, Heydər Əliyev şəxsiyyəti konkret olaraq heç bir siyasi sistemə və ya ideologiyaya sığmır. Müəyyən siyasi sistem çərçivəsində və konkret dövrlərdə yetişən tarixi şəxsiyyətlərdən fərqli olaraq o, müxtəlif siyasi sistemlərdə öz xalqının əvəzolunmaz lideri kimi fəaliyyət göstərmişdir.

Görüşdə Ali Məclisin Sədri gənclərin suallarını cavablandırıb, Naxçıvanın qədim tarixinin öyrənilməsi və müasir inkişafının təmin olunması sahəsində görülən işlər barədə onlara ətraflı məlumat verib, gələcək fəaliyyətlərində uğurlar arzulayıb. Sonra Ali Məclisin Sədri gənclərlə xatirə şəkli çəkdirib, onlara hədiyyələr təqdim edib.

50 il bundan əvvəl elan olunmuş siyasi-iqtisadi müstəqillik kursu ölkəmizə və muxtar respublikamıza yeni həyat bəxş edib

İyulun 13-də ümummilli lider Heydər Əliyevin Azərbaycanda rəhbərliyə gəlməsinin 50 illiyi münasibətilə tədbir keçirilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə çıxış edib.

Naxçıvan Dövlət Televiziyasının hazırladığı "Müstəqil və qüdrətli Azərbaycan naminə-50 il" filmi nümayiş olunduqdan sonra "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" yubiley medalının, eləcə də Azərbaycan Respublikasının fəxri adlarının və medallarının, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin gənc istedadlara xüsusi aylıq təqaüdünün təqdimatı olub.

Bəli, 50 il bundan əvvəl ümummilli lider Heydər Əliyev tərəfindən elan olunmuş siyasi-iqtisadi müstəqillik kursu, inkişafın milli intibaha yönəldilmiş modeli ölkəmizə və muxtar respublikamıza yeni həyat bəxş edib. Özünə Azərbaycan boyda abidə ucaldan Ulu Öndərimiz onu inamla idarə edə biləcək lideri, rəhbəri də yetişdirib. Məhz bunun nəticəsində ölkəmiz, o cümlədən muxtar respublikamız abadlaşıb, başdan-başa yenidən qurulub, tikilib, ucaldılıb, zirvələrə yüksəldilib. Görkəmli dövlət xadiminin "Mənim əsərlərim şeir deyil, roman deyil, elmi kitab deyil, musiqi əsəri deyildir. Mənim əsərim xalqım üçün qurduğum, yaratdığım binalar, saraylar, universitet və məktəb binalarıdır, yollardır, körpülərdir, su hövzələri, su kəmərləridir" sözləri isə onun əmanəti olan muxtariyyətinin bu il 95 illik yubileyini qeyd etdiyimiz Naxçıvan nümunəsində daha da möhtəşəm səslənir.

***Rauf Kəngərli***
***AZƏRTAC-ın Naxçıvan bürosunun rəhbəri***

# Ölkəmizdə müalicə-sağlamlıq turizmi

## *Prezident İlham Əliyev: “Hər bir ölkə, xüsusilə Azərbaycan kimi belə gözəl yerlərə, təbii sərvətlərə malik olan bir ölkə mütləq turizmi inkişaf etdirməlidir”*

***Azərbaycanda yüksək iqtisadi, sosial və ekoloji tələblərə cavab verən müasir turizm sahəsinin formalaşdırılması və onun ölkə iqtisadiyyatının əsas inkişaf dayaqlarından birinə çevrilməsinin təmin edilməsi istiqamətində böyük irəliləyişlər əldə olunub. Son illər Azərbaycanda əldə olunmuş sosial-iqtisadi irəliləyiş bunun həllinə lazımi şərait yaradıb. Ölkəmizdə turizmin inkişafının dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrildiyi mərhələdə Azərbaycanda səhiyyə turizminə diqqət artıb.***



Ölkəmizdə müalicə-sağlamlıq turizminin inkişafı üçün də təbii ehtiyatlar baxımından hər şey var. Naftalanın müalicəvi nefti, Naxçıvanın duz mağaraları, Abşeron göllərinin müalicəvi palçıqları və suları, Lənkəranın, Gədəbəyin mineral suları və s. Azərbaycanın səhiyyə turizminin geniş şəkildə dünya məkanına çıxarılmasında əsas faktorlardır.





### AZƏRBAYCAN PALÇIQ VULKANLARININ VƏTƏNİDİR

Məlumdur ki, Azərbaycanın ərazisi planetimizin palçıq vulkanizminin inkişaf etdiyi unikal və klassik regionudur. Yer kürəsində olan 600-dən çox palçıq vulkanlarından 300-dən artığı Şərqi Azərbaycanın quru hissəsində və ona birləşən Xəzərin akvatoriyasında yerləşir. Təsadüfi deyil ki, Azərbaycan palçıq vulkanlarının vətəni sayılır. Vulkanların sayına, müxtəlifliyinə və aktiv fəaliyyətinə görə dünyada Azərbaycan ərazisinə oxşar əraziyə təsadüf edilmir. Palçıq vulkanları əsasən, Abşeron yarımadasında, Şamaxı-Qobustan, Cənub-Şərqi Şirvan və Bakı arxipelağında yerləşir. Təkcə Qobustanda 100-dən çox palçıq vulkanı var.

Palçıq vulkanları ərazilərinin böyük turizm potensialı var. Ölkəmizdə dünyada yayılmış bütün növ vulkanlara - aktiv fəaliyyətdə olan, sönmüş, gömülmüş, neytral, ada, sualtı və s. növlərə rast gəlmək mümkündür. Azərbaycan ərazisində bu sayda palçıq vulkanının qeydə alınması ölkəmizin böyük təbii sərvətidir. Palçığın tərkibi çox lazımlı mikroelementlərlə zəngin olduğundan, onların çoxu müalicəvi əhəmiyyətə malikdir. Müasir dövrümüzdə dünya təcrübəsində palçıq vulkanları yerləşən, möhtəşəm və əsrarəngiz görünüşə malik ərazilərə turistləri cəlb etmək üçün turlar təşkil edilir, müalicəvi əhəmiyyətli kurortlar salınır. Bu ölkələr rekreasiya əhəmiyyətli resurslarından bacarıqla istifadə edərək milyonlarla gəlir əldə edirlər. Təkcə dünyada kurort zonası kimi tanınan Krıma diqqət etsək görərik ki, bu məkanda 240-dan artıq müalicəvi kurortlar fəaliyyətdədir ki, hər il yüzlərlə insan müalicə olunmaq məqsədi ilə buraya üz tuturlar.

Hazırda palçıq vulkanları təbii abidələr statusu alıb və dövlət tərəfindən qorunur. Müstəqillik dövrümüzdə vulkanlar təbiət abidələri statusu alıblar. Bakı və Abşeron ərazisində 52 palçıq vulkanına qoruq statusu şamil edilib.



### DÜNYADA YEGANƏ NEFT OLAN NAFTALAN NEFTİ MÜALİCƏVİ ƏHƏMİYYƏTİNƏ GÖRƏ ƏFSANƏVİ XARAKTER DAŞIYIR

Müalicəvi əhəmiyyət kəsb edən Naftalan nefti respublikamızın ən qiymətli təbii sərvətlərindən biridir. Ta qədimdən indiyə kimi saysız-hesabsız xəstə bu neftin şəfaverici keyfiyyətindən bəhrələnib. Müalicəvi xassələrə malik olan Naftalan nefti sümük - oynaq, dəri, qadın xəstəliklərindən və uroloji xəstəliklər, əsəb, genikoloji, uroloji və dəri xəstəliklərinin, eləcə də qara ciyər xəstəliklərinin, oynaqların və dayaq hərəkət aparatına aid olan oynaqdan kənar yumşaq toxumaların müalicəsi üçün müstəsna vasitə kimi bütün dünyada məşhurdur. Elə buna görə respublikamızın şəhər və rayonlarından hər il çoxlu sayda xəstə bura pənah gətirir. Həmçinin Naftalan nefti güclü iltihabəleyhi, ağrıkəsici, allergiyaəleyhi və hormonabənzər təsirlərə malikdir. Bu müalicəvi xüsusiyyətlərinə görə naftalan nefti ilə 70-dən artıq xəstəliyin müvəffəqiyyətli müalicəsi mümkündür.

Hələ qədim zamanlardan Asiyanın müxtəlif güşələrindən, eləcə də uzaq Hindistandan Azərbaycana üz tutan minlərlə adam müxtəlif xəstəliklərdən xilas olmaq üçün buradan Naftalan nefti aparır, öz vətənlərində həmin neftin köməyi ilə müalicə olunurdu. Neft tuluqları yüklənmiş dəvə karvanları buradan Şərq ölkələrinə yollanırdı. Naftalan nefti dünyada yeganə neft olub öz müalicəvi əhəmiyyətinə görə əfsanəvi xarakter daşımaqla fiziki-kimyəvi xassəsinə görə başqa neftlərdən fərqlənir.

### “QALAALTI” KURORTUNA YENİ HƏYAT VERİLİR, QALAALTININ YENİ DÖVRÜ BAŞLAYIR”

Azərbaycanın mineral sularından da təbabətdə geniş surətdə istifadə olunur. Azərbaycandakı müxtəlif mədən sularının müalicə xüsusiyyətləri insanlara qədim zamanlardan məlum olmuşdur. Azərbaycan müalicə əhəmiyyətli mineral sularla zəngindir. Ölkəmizin ərazisində 1000-dən çox mineral su bulağı vardır. Bu bulaqların çoxu respublikamızın dağlıq rayonlarında yayılmışdır. Düzən rayonlarda isə təbii su bulaqlarına az rast gəlinir.

İlk növbədə, qumlu sahilləri və dənizi ilə şöhrət tapan Abşeron yarımadasında çoxlu şəfa bulaqlarının qaynaqları qeyd olunmalıdır. Suraxanı, Sabunçu və Şıx burnunda çıxan mineral sular böyük müalicəvi əhəmiyyətə malikdir. Bu sulardan ancaq müalicə məqsədilə istifadə olunur. Naxçıvan Muxtar Respublikasının ərazisində 200-dən çox mineral su bulağı vardır. Bu əsrarəngiz diyarın mineral suları öz müxtəlifliyi ilə muzeyi xatırladır. “Badamlı”, “Sirab” kimi müalicəvi sular məhz Azərbaycanın ən səfalı və şəfaverici məkanlarından biri olan Naxçıvanda çıxır. Respublikamızın möcüzəli sularından biri də Masallıdakı məşhur “İstisu”dur. Bu su yerin çox dərin qatlarından 60 dərəcədən də yuxarı isti halda çıxır. Qədimdə yerli sakinlər bu suyu minbir dərdin dərmanı olaraq möcüzə kimi qəbul etmişlər.

Azərbaycanın yeraltı, yerüstü sərvətləri, zəngin təbiəti hər zaman diqqətdə olmuş və ölkəmizə gələn turistlər üçün böyük tapıntı təsiri bağışlamışdır. Bura gələn həm sağlamlığını bərpa edir, həm də səfalı guşələrdə istirahətinin təşkilinə nail ola bilir. “Biz çox xoşbəxt insanlarıq ki, belə gözəl ölkədə yaşayırıq”, - deyən Prezident İlham Əliyev Xəzər dənizinin, dağların, çayların, bulaqların, göllərin, meşələrin ölkəmizdə olmasını turizmin inkişafında müstəsna rolu olduğunu bildirib: “Belə olan halda, turizmin inkişafı bir neçə il bundan əvvəl, prioritet istiqamət kimi müəyyən edilmişdir və hazırda ölkəmizin müxtəlif yerlərində dünya səviyyəli turizm mərkəzləri və kurortlar fəaliyyət göstərir... Hər bir ölkə, xüsusilə, Azərbaycan kimi belə gözəl yerlərə, təbii sərvətlərə malik olan bir ölkə mütləq turizmi inkişaf etdirməlidir. Çünki bu, daimi gəlir mənbəyidir. Təbii sərvətlər, neft, qaz - bunlar tükənən sərvətlərdir. Ancaq ölkəmizin dayanıqlı inkişafı üçün daim gəlir gətirən sahələr mütləq inkişaf etməlidir. Onların içərisində turizm xüsusi yer tutur”.

Bu gün Qalaaltıda müalicə almaq, istirahət etmək, dincəlmək üçün bütün imkanlar var. Əminliklə deyə bilərik ki, Azərbaycanda turizm bazarı açıq, rəqabətə davamlıdır. Bu sahənin inkişafı və turizm sektorunun ölkə iqtisadiyyatının aparıcı sahələrindən birinə çevrilməsi üçün görülən işlər bunu təsdiqləyir.

**ZÜMRÜD BAYRAMOVA**

# Nikolun hökuməti iradəsiz hakimiyyət adlandırıldı

*Armenianreport: "Yalnız Paşinyanın ifasında imitasiyalar, vədlər, sonsuz şoular mövcuddur"*



***Ermənistanın ictimai rəyində Nikol Paşinyana olan inamın sürətlə azalması günü-gündən daha çox müşahidə edilir. Ümumiyyətlə, erməni baş nazirinin vədlərini yerinə yetirə bilməməsi ilə yanaşı, onun daxili və xarici, iqtisadi və sosial siyasət sferalarındakı naşılığı, xüsusilə ard-arda yalanlar söyləməsi xalqı hiddətləndirir. Bu baxımdan, Paşinyanı KİV-lər də hədəfə almaqda davam edirlər. Xatırlamaq olar ki, bənzər hədəfəalmalar zamanında keçmiş prezident Serj Sarkisyana qarşı da tətbiq edilirdi. Bütün bunlar isə ilk növbədə bu cür qənaətə gəlməyə zəmin yaradır ki, N.Paşinyanın siyasi karyerası bitmək, özü isə reytinqini itirmək üzrədir.***

Misal üçün, diqqətimizi armenianreport portalında Razmik Akopcanyanın məqaləsi çəkdi. "İradəsiz hakimiyyət" adlı məqalənin xüsusilə Ermənistanla bağlı bölmədə qeyd olunduğuna görə, ölkədəki siyasi və iqtisadi islahatlar təəssüf ki, baş verməmiş qaldı: "Hətta onların qoxusu belə gəlmir. Necə ki, korrupsiya ilə mübarizə reallığının da iyi gəlmir".

### "Onlara qarşı sıfır tolerantlıq rejimi tətbiq edilməmiş qaldı"

Maraqlı məqamlardan biri də budur ki, erməni baş nazir xalqı qarşısında bütün ciddiliyini itirib, hətta o şoumen belə adlandırılır. SİTAT: "Yalnız Paşinyanın ifasında imitasiyalar, vədlər, sonsuz şoular mövcuddur. Korrupsionerlər isə onun hakimiyyətində dəmir barmaqlıqlar arxasına keçirilmədilər. Onlara qarşı sıfır tolerantlıq rejimi tətbiq edilməmiş qaldı".

Onu da qeyd edək ki, son vaxtlar erməni ictimai rəyində daha bir iddia səslənir ki, Nikol Paşinyanın inqilabı əvvəlcədən Serj Sarkisyanla razılaşdırılıb. "Ermənistan balaca ölkədir və burada həqiqəti əritmək mümkün deyil", yazılan məqalədə bildirilir ki, xalqın gözü açıqdır.

Qeyd edək ki, artıq erməni ictimai rəyi yuxarıda bildirilən iddia ilə yanaşı, Paşinyanın yalançılıq üzərində oyun oynadığını da deyirlər. Hətta o da bildirilir ki, Serj Sarkisyanın adamlarının əllərini sallayaraq rahat şəkildə öz həyatlarını davam etdirib, zəngin ömür sürmələri sadə xalqı dərindən qıcıqlandırır. SİTAT: "Xalq hər şeyi görür və bilir ki yeni hakimiyyət ona yalan danışır. Xalq bilir ki, keçmiş Sarkisyan rejiminin qorucuyu bəndi sayılan oğrular və müxtəlif masştablı cinayətkarlar talan etdiklərinə görə müvafiq cəzalarını almayıblar. Onlar özlərini hansı yolla təhlükəsizliklə təmin edə biliblər. Ona görə də, artıq söhbətlər gəzməyə başlayıb ki, yeni hakimiyyət belə bir indulqensiyaya görə lazımi kompensasiya alıb"

### "Bundan sonra Paşinyan üçün yalnız pis olacaq"

Beləliklə, cərəyan edən hadisələr, ümumilikdə Ermənistanın daxilindəki mövcud vəziyyət də sübut edir ki, qısa zamanda, Nikolun da dövrü bitəcək. Çünki artan xalq narazılığı, ortaya çıxan digər məsələr deyilənlərin həqiqət olduğunu sübut edir. Daha dəqiq desək, mövcud hakimiyyətə nə inam, nə də ümid qalıb. SİTAT: "Bütün bunlar, yeni hakimiyyətə və şəxsən Paşinyana qarşı olan inamı sürətlə aşağı salıb. Bundan sonra isə, onlar üçün yalnız pis olacaq. Həm də ona görə ki, islahatlar nəticəsində korrupsiya ilə mübarizənin yoxluğu siyasi iradəsizliyin göstəricisidir. Ortada yalnız fantastik xarakterli vəd var ki, onun da müddəti 2050-ci il təyin olunub. Bu isə, açıq-aşkar xalqı ələ salmaqdır ki, Paşinyan həmin vasitə ilə hakimiyyətə yiyələnməsini təmin etmişdi".

Göründüyü kimi, artıq Nikolun şou xarakterli hakimiyyət idarə etməsinin başlanğıcı gəlib-çatıb. Bu başlanğıc isə, ilk növbədə Ermənistanı daha ağır vəziyyətə doğru sürükləyir.

***Rövşən NURƏDDİNOĞLU***

# Ermənistanda keçmiş deputatın biznesmen qardaşı həbs edilib



Ermənistan parlamentinin keçmiş deputatı və iş adamı Melik Manukyanın qardaşı Robert Manukyan barəsində həbs qətimkan tədbiri seçilib. "Report" "Novosti Armeniya"ya istinadən xəbər verir ki, Ermənistanın Kotayk vilayəti ümumi məhkəməsinin hakimi Ovanes Avaqyan avqustun 8-də bu barədə qərar qəbul edib.

Bildirilib ki, iş adamı Robert Manukyan hakimiyyət nümayəndəsinə güc tətbiq etməkdə, məhkəmə qərarının icrasına və təhqiqata mane olmaqda ittiham edilir. Məlumata görə, o, polis bölməsinə gətirilən zaman 6 polis əməkdaşına təkbaşına xəsarət yetirib.

Xatırladaq ki, Robert Manukyan avqustun 3-də Yerevan-Sevan şosesində partlayışın hədəfinə çevrilən Melik Manukyana məxsus "Range Rover" markalı avtomobili oğurlamaqda şübhəli bilinərək tutulub. Vəkilləri isə Robert Manukyanın polsi bölməsində döyüldüyünü bildiriblər.

# "Paşinyanın çıxışı qeyri-adekvatlığı ilə yadda qaldı"



"Ermənsistanın baş naziri Nikol Paşinyanın Xankəndində etdiyi çıxışlarının hamısı həm daxili, həm də xarici auditoriya üçün hesablanmışdı". Bunu SİA-ya açıqlamasında siyasi şərhçi Arzu Nağıyev deyib.

"Təsəvvür edin ki, bir gün öncə Paşinyan İrəvanda tam başqa bir rakursdan çıxış edir və eyni zamanda deyir ki, bütün problemlərin hamısı Ermənistanın keçmiş iqtidarının boynundadır. Həmçinin İrəvanın bu siyasəti düzəltmək üçün riçarqları demək olar ki, yoxdur və problem böyükdür və s. belə çıxışlar edir. Bundan sonra isə Paşinyan Xankəndinə səfərdə tam başqa cür çıxış edir. Bildiyiniz kimi bu artıq hazırlanmış bir səfər idi. Burada əsas məram və məqsəd Ermənistan diaspora və qondarma qurumun bir yerdə olmasını göstərmək idi. Əsas məsələ isə ondan ibarət idi ki, bildiyiniz kimi 2020-ci ildə orada qeyri-qanuni həm parlament, həm də prezident seçkiləri keçirilməlidir. O bu seçkilərdə nəyin bahasına olursa-olsun özünün patronajı altında olan bir şəxsin qondarma prezident seçilməsi üçün dəridən-qabıqdan çıxır. Eyni zamanda o göstərməyə çalışır ki, məhz Ermənistan və qondarma qurum arasında elə bir problem yaşanmır və biz daim bir yerdəyik və s. Yəni bu məsələlərə diqqətlə yanaşanda və onun çıxışlarına da fikir verəndə əvvəlcə Bako Saakyan danışdı. Bako Saakyan danışanda yenə də Dağlıq Qarabağ kartını oynamağa başladı. "Biz Ermənistanla bir yerdəyik, lakin buna baxmayaraq biz öz müstəqilliyimiz üçün çalışırıq". O bu cür rakursdan çıxış edirdi. Paşinyan isə artıq öz çıxışını bir neçə hissəyə bölmüşdü. Onun çıxışı qeyri-adekvat bir çıxış kimi yadda qaldı"-deyə, A.Nağıyev fikrini tamamlayıb.

# Atlantada odlu silahla 4 nəfər qətlə yetirilib



Corciya ştatının hüquq-mühafizə orqanları Atlanta rayonunda törədilmiş üçqat qətl hadisəsini araşdırırlar. Dekalb şəhərindən olan serjant C.Spenserin sözlərinə görə, qatil Stoun Mauntin şəhərində iki qadını və bir kişini güllələyib, sonra isə intihar edib. Polis qatilin özünün cəsədini hadisə yerindən 3 kilometr aralıda tapıb. Polisin fikrincə, qətllər ailə münaqişəsi zəminində baş verib. AZƏRTAC xəbər verir ki, son iki həftə ərzində ABŞ-da zorakılığın kəskin artması müşahidə olunur. Ötən istirahət günlərində Texasda və Ohayoda kütləvi güllləbaran nəticəsində 30-dan çox adam qətlə yetirilib, əvvəlki həftənin istirahət günlərində Şimali Kaliforniyada keçirilən yay festivalında atışma nəticəsində daha üç nəfər həlak olub.

# "Qırğızıstanda növbəti inqilab üçün bütün əsaslar var"



"Hazırda Qırğızıstanda iki hakimiyyətin formalaşmasına doğru proseslər gedir. Amma o proseslərin nə dərəcədə sürətlə gedəcəyi əlbəttə ki, hakimiyyətdən asılıdır. Müşahidələr onu göstərir ki, hakimiyyət təmsilçiləri, güc strukturları kifayət qədər səriştəli hərəkət etmirlər". Bunu SİA-ya açıqlamasında politoloq İlqar Vəlizadə deyib.

Politoloqun sözlərinə görə, Qırğızıstanın eks-prezidenti Almazbek Atambayevin həbsi və məhkəməyə cəlb olunması ilə bağlı hərəkətlər onu göstərir ki, hakimiyyət orqanları Atambayevin tərəfdarları qarşısında aciz olublar: "Digər tərəfdən Almazbek Atambayevin tərəfdarlarının şərti qələbəsi ona imkan verir ki, öz fəaliyyətini daha da fəallaşdırsınlar və hakimiyyət strukturlarında Atambayevə simpatiya edən insanların Atambayevin tələsinə düşməsinə imkanlar yaradır. Çox güman ki, vəziyyət bu axarla getsə, o zaman Almazbek Atambayev hakimiyyət strukturlarında ona simpatiya edən adamların sayını da çoxalda bilər. Beləliklə Qırğızıstanda ikinci yəni növbəti hakimiyyət dəyişməsi üçün münbit şərait yarana bilər. Qırğızıstanda növbəti inqilab üçün bütün əsaslar var. Sadəcə olaraq bu, iştirakçıların hərəkətliyindən asılı olacaq. Yəni, Atambayev axıradək getsə, Qırğızıstanda mitinqlər böyüyəcək və regionlar ayağa qalaxacaq. Atambayevin həm maliyyə imkanları var, həm də hakimiyyət strukturlarında dayaqları mövcuddur".

# Co Bayden kütləvi qətllərə görə Trampı "topa tutdu"

Çərşənbə günü Prezident Donal Tramp Ohayo ştatının Deyton şəhərinə, sonra isə Texas ştatının El-Paso şəhərinə yola düşüb. Bu səfərin məqsədi keçən həftənin istirahət günlərində kütləvi güllələmə hadisələri baş vermiş ərazidəki icmalarla görüşməkdir.

Sabiq vitse-prezident Co Bayden Prezidenti tənqid edərək bildirib ki, Tramp öz ritorikası ilə ağdərililərin üstünlüyünü və zorakılığı təşviq edir. Bayden öz seçkiqabağı kampaniyası çərçivəsində Ayovadakı tərəfdarları qarşısında çıxış edərək belə bir ritorik sual verib: "Trampın sözləri El-Pasodan



olan cinayətkarın "Bu hücum Latın amerikalılarının Texasa müdaxiləsinə cavabdır" sözlərindən nə ilə fərqlənir?. Bu ölkədə ağların üstünlüyü alovunu qızışdıran Prezidentdir".

# Səndən hər şey düzəltmək olar

## Dünən iqtidarçı, bu gün müxalifətçi, sabah heç kim olmayan Gültəkin



***Son günlər G.Hacıbəyli sosial şəbəkələrdə bir yığın başısoyuğu ətrafına cəmləyib Azərbaycanda insan hüquq və azadlıqlarının pozulmasından danışır və müqayisələr aparır.***

Bu yerdə susa bilmirsən. Bir mənəviyyat, əxlaq deyilən milli dəyərlər kimi xüsusiyyətləri yadına sal Gültəkin. 2010-cu ilə qədər deputat kürsüsündə oturduğun və Milli Məclisin plenar iclasında Azərbaycanın demokratik və inkişaf etmiş ölkə olduğunu verilən vaxtdan da çox danışırdın. Mən orada parlament müxbiri kimi dəfələrlə şahidi olmuşam. Hətta spikerdən əlavə vaxt da istəyirdin ki, müxalifətin böhtanlarına cavab verəsən. 2009-cu ildə Milli Məclisin plenar iclasındakı çıxışın zamanı deyirdin: "Azərbaycan demokratiya yolunda addımlarını atan bir ölkə kimi, sözsüz ki, insan haqları sahəsində də inkişaf edir. Azərbaycanda insan haqları sahəsində spekulyasiyalar da var. Məhz bu spekulyasiyalar nəticəsində, bəzən biz terrorçuların, casusların cəmiyyətə siyasi məhbus kimi təqdim edilməsi, sırınması niyyətlərini görürük".

### Suyu bulandırma cəhdlərinin perspektivi yoxdur

Sənə sual edəndə ki, sən nə vaxtsa müxalifətçi ola bilərsən? Cavab vermişdin ki, mən heç vaxt müxalifətçi olmaram və məndən heç kəs müxalifətçi düzəldə bilməz. Ay satqın, riyakar və rüşvətxor Hacıbəyli, bir izah edin görək, nə dəyişdi? O günləri nə tez unutdun. Bir faktı da xatırlatmaq istərdim. İndi yadına sal. 2009-cu ildə keçirilən referendum zamanı İTV-də keçirilən debatda Hüquq və Demokratiya Təşviqat Qrupunun vəkili olan G.Hacıbəyli ilə İ.Qəmbər arasında baş verən insident də yaddaşlardan silinməyib. Yuxarıda təqdim etdiyim çıxışı zamanı G.Hacıbəyli "terrorçuları və casusları cəmiyyətə "siyasi məhbus" kimi sırıyanlar" deyəndə də AXCP sədri Ə.Kərimlini və Müsavat başqanını nəzərdə tuturdu. İndi nə dəyişdi ki? Daha doğrusu, 2010-cu ilin noyabrında keçirilən parlament seçkilər zamanı deputat ola bilməyən G.Hacıbəyli necə oldu ki, elə həmin ilin dekabr ayında "müxalifətçi" oldun? Deməli, səndən hər şey düzəltmək olar.

Bu gün yenidən sosial şəbəkələrdə Azərbaycanda inqilabi islahatlarla bağlı aparılan siyasəti tənqid edən G.Hacıbəylinin yadına parlamentin iclasında dediyi sözləri xatırlatmaq istərdim: "Azərbaycanda çox mühüm qanunların hazırlanmasında parlament müstəsna rol oynayır. Mən çox sevinirəm ki, möhtərəm Prezidentimizin çağırışına cavab olaraq, pensiya sahəsində çox köklü bir qanunu müzakirəyə çıxarıb. Bu, sözün həqiqi mənasında, çox böyük dəyişikliklərdən xəbər verən bir qanundur. Mütərəqqi və islahat xarakterli bir qanundur. Düşünürəm ki, yeni il qabağı Azərbaycan xalqına, pensiyaçılara Milli Məclisin çox dəyərli bir töhfəsi olacaqdır. Eyni zamanda, möhtərəm Prezidentimizin səsləndirdiyi islahat kursuna cavab verən bir addımdır".

Digər bir məqam isə, Yeni Azərbyacan Partiyasının yaradılmasının 24-cü ildönümü ilə bağlı keçirilən silsilə tədbirlərə qısqanclıqla yanaşan, hakim partiya haqqında sosial şəbəkələrdə hədyan yağdıran G.Hacıbəyli 2008-cu ildə tədbirdə çıxışı zamanı möhtərəm Prezidentimizin apardığı siyasəti təbliğ edir və çıxışına "Əziz yeni azərbaycanlılar, əziz İlhamsevərlər! Xoş gördük sizləri... Mən bunu cəsarətlə deyirəm. Bəli, bu seçkilərin alternativsiz qalibi İlham Əliyevdir".

Bəli, bu, həmin Gültəkindir. Bu, dünən iqtidarçı, bu gün müxalifətçi, sabah heç kim olmayan Gültəkindir. Sosial şəbəkələr xəstəsi yenə böhtan dolu çıxışlar etməklə heç bir şey dəyişməyəcək. Çünki bu, yenə də heç bir dəyəri olmayan satqın, mənəviyyatsız rəzil Gültəkindir. Və bu rəzil qadın hələ də anlamır ki, artıq zaman dəyişib, regionun əsas gücünə, qüdrətli dövlətinə çevrilən Azərbaycan üçün heç bir beynəlxalq təhdid qorxulu görünmür. Bütün dəyişiklikləri, qüdrətli Azərbaycanın haradan-haraya necə gəlməsini xalq yaxşı bilir ki, həmin antitəbliğatlar, sifarişli fəaliyyətlər, gözdənsalma kampaniyalarına cəhdlər sabun köpüyü kimi bir şeydir. Və bu cür destruktiv qüvvələrin istənilən çağırış və sosial şəbəkələrdəki aktivliyinə əhəmiyyət vermir. Ancaq yazıqlar olsun mənəviyyatını itirən satqın və nankor Gültəkin kimi kəslərə!!!

Son olaraq, qeyd etmək istəyirəm ki, suyu bulandırma cəhdlərinin perspektivi yoxdur. Çünki zaman-zaman Azərbaycana qarşı güclənən və səngiyən çirkin qarayaxma kampaniyasının, eləcə də, sabitliyin pozulmasına edilən davamlı cəhdlərin arxasında da dövlətimizin heç bir qüvvənin qarşısında əyilməməsi, öz mövqeyini qətiyyətlə müdafiə etməsi, ardıcıl və prinsipial siyasətidir. Odur ki, sifarişlə çalışan dağıdıcı qüvvələr nə əvvəllər öz qərəzli planlarını reallaşdıra biliblər, nə də bundan sonra çirkin niyyətlərinə nail ola biləcəklər. Çünki Azərbaycanda güclü xalq - iqtidar birliyi var. Odur ki, bulanıq suda balıq tutmaq istəyən G.Hacıbəyli bilməlidi ki, Azərbaycan vətəndaşını öz xəbis niyyətinin icraçısına çevirə bilməyəcək. Çünki G.Hacıbəyli kimilərin tarix boyu cəmiyyətə qazandırdığı və qazandıracağı heç nə olmayıbdı. Uzun illər bu dövlətin çörəyini yemiş, sonradan əqidəni 180 dərəcə dəyişən, Vətənindən, dövlətindən üz çevirən şəxsin hərəkətlərinin bir adı var - NANKORLUQ!!!

***Rəfiqə HÜSEYNOVA***

# Fuad Əliyevin İsgəndər Həmidovu reklam etmək məqsədi

## Yoxsa "AXH"nin parçalanmasını gizlətmək cəhdi?

***Yarandığı ilk gündən, daxilində ziddiyyətlər yaranan "Azərbaycan Xalq Hərəkatı" bir müddət keçdikdən sonra parçalandı və bu parçalanma növbəti dəfə sübut etdi ki, dağıdıcı düşərgədə konstruktivliyindən, yaxud destruktivliyindən asılı olmayaraq, bir çox siyasi təşkilatlar bir-birlərini həzm etmirlər. Bunun isə, yeganə səbəbi şəxsi mənfəətlərinin digərlərindən üstün tutmaq cəhdləridir. Xüsusilə, "AXH"nin yaranmasında əsas təşəbbüskarlarından olan AMDP sədri İsgəndər Həmidovun son vaxtlar xəstələnməsi, müalicəyə getməsi hərəkatdaxili vəziyyətin daha da gərginləşməsinə səbəb olub. Buna baxmayaraq, "AXH" hələ İ.Həmidovun səhhətinin pisləşməsindən əvvəl laxlamağa başlamışdı. Orada təmsil olunan bir sıra partiya sədrləri Həmidovun özünü "lider" olaraq ortaya atıb, bütün məsələlərdə şəxsi fikirlərini yürütməsi səylərini qəbul etməmişdilər.***

### "AXH"nin təşəbbüs və planları baş tutmamış qaldı

Maraqlı məqamlardan biri də, "AXH"də bir neçə qruplaşmaların ayrı-ayrılıqda digər hərəkatlarla danışıqlara gedib, mövqelərin möhkəmləndirmək istəkləridir. Çünki ümumilikdə "AXH"nin heç bir təşəbbüsü, misal üçün mitinq və s. bənzər planları baş tutmamış qaldı. İlk növbədə, tərəfdar toplamağı bacarmayan "AXH"nin parçalanmış qanadları elektorat qıtlığından əziyyət çəkdi, sonradan isə daxili çəkişmələr öz sözünü deməyə başladı. Lakin bütün bunlara rəğmən, qarşılaşdığı ağır və çıxılmaz durumu necə deyərlər, malalamağa çalışanlar da tapılır.



### İsgəndər Həmidov nə qədər "mühüm şəxsiyyətdir" ki, hələ bir cəmiyyət də onun mesajlarını dinləsin?

Məsələ ondadır ki, bu günlərdə "AXH"nin üzvü, ALDP-nin sədri Fuad Əliyev müstəqil KİV-lərin birində canlı yayıma çıxaraq, İ.Həmidovun reklamını aparmaqla məşğul olub. Hətta bu reklamına o qədər aludə olub ki, haqqında danışdığı şəxsin - İ.Həmidovun "cəmiyyətə mesajı" olduğunu belə deyib. Maraqlıdır, bu gün xalq, cəmiyyət, ümumiyyətlə, elə müxalifətçilər arasında heç bir nüfuzu olmayan İ.Həmidov nə qədər "mühüm şəxsiyyətdir" ki, hələ bir cəmiyyət də onun mesajlarını dinləsin? Yaxud İ.Həmidov özünü bu qədərmi önəmli siyasi xadim olduğunu düşünür, ya da hesab edir? Əlbəttə ki, əgər belədirsə, onda AMDP sədri özünü "AXH"nin "lideri" kimi zorla ictimai rəyə sırımağa cəhdlər göstərir. Bu məsələdə isə, ona yardımı göründüyü kimi, ALDP sədri F.Əliyev göstərir.

### İsgəndər Həmidov yerini Fuad Əliyevə verir, yoxsa ortada imitasiya var?

Bəs burada maraq nədir? Sirr deyil ki, Azərbaycanda istənilən radikal və ya radikallığa meyilli siyasi təşkilatlar mütləq mənada, hansısa xarici dairələrdən müvafiq sifarişlər alır, müqabilində qrantlar əldə edirlər. Bu qrantları qazanmaq üçün isə, fəaliyyət göstərmək lazımdır. Ancaq ortada heç bir fəaliyyət yoxdur və səbəblərini də yuxarıda qeyd etmişik. Lakin görüntü yaratmaq məqsədi ilə, qrantları əldən verməmək üçün zaman-zaman, məhz F.Əliyev mətbuata çıxaraq, İ.Həmidovun "cəmiyyətə mesajı var" tipli açıqlamalar verir. Bu isə, həm də belə qənaətə gəlməyə zəmin yaradır ki, ortada yalnız və yalnız imitasiya məsələsi mövcuddur. O cümlədən, İ.Həmidov kifayət qədər yaşlı və xəstədir, onun fəaliyyətinin bundan sonrakı dövrü heç bir səmərə vermək qabiliyyətində deyil. Ola bilsin ki, İ.Həmidov öz yerini F.Əliyevə versin, amma bu da "AXH"də nəyi isə dəyişməyəcək. Dəyişən yeganə şey fərdlər olacaq. Fərdlərin isə, dəyişməsi adıçəkilən hərəkatı bütövlükdə, bataqlığa sürükləyib, siyasi məhvə məhkum edəcək.

***Rövşən RƏSULOV***

# Şər şəbəkənin erməni “başı”

## *Xədicə İsmayıl kimilər erməniyə bütün mənliklərini verirlər*

***Qınamayın məni, bu ölkədə yaşayasan, havasını udasan, istədiyini edəsən, sonra da milli maraqlara qarşı çıxasan, bələlərinə nə deyəsən. Bəlkə də bundan da kəsərli söz deməliyəm. Özünü “araşdırıcı jurnalist” hesab edən, bütün varlığını erməniyə satan, erməni “başı” Xədicə İsmayıl kimi əxlaqsızlar daha kəsərli sözə layiqdir. Çünki bütün mənliyini erməniyə verən əxlaqsızlıq mənbəyi olan X.İsmayıl həmişə kimliyini dönə-dönə göstərib və bu gün də göstərir. Başını, erməninin göstərişi ilə, deşik qalmır soxmasın. Elə bir neçə ay bundan öncə, X.İsmayıl sosial şəbəkədə Ramil Səfərovun biabırçı cinayət törətməsi ilə bağlı yazdı. İlk öncə bir özünə bax, hansı biabırçılıqdan danışırsan? Başdan-ayağa ləkəsən, özü də ermənin in... getməyən ləkəsində! İkincisi isə, əxlaqsızlıq simvolusan. Hafiz Hacıyev demişkən: “Sənin Azərbaycanda yaşamağa haqqın yoxdur!”***

### Hafiz Hacıyev: “Xədicə İsmayıl kimi əxlaqsızın Azərbaycan torpağında yaşaması cinayətdir”

Müasir Müsavat Partiyasının sədri H.Hacıyev, bütünlüklə qanı, əqidəsi erməni olan əxlaqsız, mənəviyyatsız X.İsmayılın, nəinki Ramil Səfərov, Azərbaycan dövlətinə, xalqına qarşı səsləndirdiyi fikirlərə görə bu erməni “başını” dar ağacından asmaq lazımdır. Damarlarında erməni qanı axan X.İsmayıl kimi əxlaqsızlar məsuliyyətə cəlb edilməlidir: “Bu gün Azərbaycana qarşı böyük ideoloji hücum və bu hücumun başında erməni mafiyası, diasporası durur. Burda da X.İsmayılova kimilərdən istifadə edirlər. Mübariz İbrahimov və R.Səfərov kimi qəhrəmanları təhqir etmək, Azərbaycan Ordusunu təhqir etmək deməkdir. Azərbaycan xalqını, dövlətini təhqir edən bu əxlaqsızın məqsədi bəllidir. Bunlar haqqında ciddi tədbir görmək lazımdır. Xədicə İsmayıl bu günə kimi bir daşı daş üstdə qoyubmu? Xeyr! Tərbiyəsizliyi ilə, əxlaqsızlığı il erməni “başı” olmağı ilə fəxr edən və ermənilərə məlumat ötürməkdən başqa işləri yoxdur. Belələri Azərbaycan kimi bir ölkədə yaşamamalıdır”.



### Xədicə İsmayıl, sən kimsən: ermənilərin sözçüsü, yoxsa?

Bəli, Azərbaycanda “beşinci kolon” təmsilçilərinin ən “parlaq” simalarından olan X.İsmayılın fəaliyyətinin nüvəsində hansı məqsədlərin yatdığı, onun bəzi “araşdırmalarında” hansı mənbələrdən yararlandığı və bu cızma-qaraların ərsəyə gəlməsində xarici xüsusi xidmət orqanlarının hansı rol oynadığı daha parlaq cizgilərlə ifadə olunur. Sirr deyil ki, X.İsmayıl hər platformada guya Azərbaycan hökumətinə müxalifətdə olduğunu iddia etsə də, əslində, xaricdən aldığı təlimatlar əsasında birbaşa dövlətə qarşı fəaliyyət göstərir. Ermənilərlə əməkdaşlıq etmək onun tərcümeyi-halından qırmızı xətlə keçir. Elə yaxın tarixə qısa ekskurs edərək, bir neçə məqamı xatırlatmaqla bu anti-Azərbaycan yönümlü fəaliyyətin müəyyən konturlarını görmək mümkündür.

Normal halda, etik baxımdan qəbuledilməz sayılan addımları atmaq Xədicəyə “bir qurtum su içmək” kimi asandır. Bu, o X.İmsayıldır ki, uzun illər eyni cəbhədə yer aldığı, ötən ilin oktyabrında isə “siyasi məhbus” məsələsində üz-üzə gəldiyi, hətta “ağılsız ambisioz” adlandırdığı Ə.Kərimli və C.Həsənli ilə 4-5 ay sonra mitinqdə çiyin-çiyinə “poz verməsi” Xədicə üçün qətiyyən xəcalət çəkiləcək bir nüans deyil. Yetər ki, maraqların uzlaşa biləcəyi bir nöqtə tapmaq mümkün olsun. Xədicənin ermənilərlə münasibətlərinin üst-üstə düşdüyü məqamlar isə, görünür, yetərincədir. Onlar hər kəsdən şəffaf olmağı, cəmiyyətə hesabat verməyi umduqları halda, özləri bu yöndə çağırışları süngü-bıçaqla qarşılayırlar. X.İsmayıl belələrindəndir.

X.İsmayıl kimi əxlaqsızlar, bir daha anlamalıdırlar ki, Vətənin halal çörəyinə kəm baxıb, özgənin yalı ilə bəslənənlər xalqın qınağından qurtula bilməyəcəklər.

***Rəfiqə HÜSEYNOVA***

# Bakcell gənc ixtiraçıların Amerika səfərinə dəstək göstərib



***Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell şirkəti ABŞ-ın Azərbaycandakı Səfirliyi ilə birgə azərbaycanlı şagirdlərin ABŞ-da keçirilən “Dahilərin olimpiadası”nda iştirakına dəstək göstərib.***

ABŞ-ın Nyu-York ştatında SUNY Oswego Universitetində keçirilmiş IX “Genius olympiad” (“Dahilərin olimpiadası”) müsabiqəsində Azərbaycanı Gəncə şəhərindən olan IX sinif şagirdləri Rəsul Əliyev və Hüseyn Əliyev təmsil edib. Onlar tədbirdə “LEGO technic” vasitəsilə yaratdıqları “RoboAqrar” robotunu nümayiş etdiriblər. Fermerlər üçün nəzərdə tutulan bu robot kənd təsərrüfatında geniş istifadə potensialına malikdir. Gənc ixtiraçılarımız olimpiadanın “Biznes” kateqoriyasında fərqlənmə diplomuna layiq görülüb. Qeyd edək ki, müsabiqəyə 79 ölkədən 2800 nəfərdən çox şagird qoşulub.

Bakcell şirkəti gənclərin təhsili və inkişafına, həmçinin Azərbaycanda startap mühitinin yaxşılaşmasına mütəmadi olaraq dəstək göstərir. Şirkət Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin INNOLAND Inkubasiya və Akselerasiya Mərkəzi yerli startaplar üçün birgə inkubasiya proqramı həyata keçirir. Həmçinin, 2014-cü ildən etibarən müxtəlif proqram təminatı və avadanlığın yaradılması ilə məşğul olan yerli startaplar və developerlər öz ideyalarını həyata keçirmək üçün Bakcell şirkətinin AppLab proqramından dəstək alırlar. Bu mühüm layihələr ölkənin bütün startap ekosisteminin inkişaf olunmasına böyük töhfə verməklə Azərbaycanda startap mədəniyyətinin formalaşdırılmasında böyük rol oynayır.



## *Sosial şəbəkə əxlaqsızı*

**RƏFİQƏ**

***Özünün siyasi fəaliyyətini büsbütün sosial şəbəkələr üzərində quran satqın və əxlaqsız AXCP sədri Əli Kərimli gecəli-gündüzlü milli və dövlətçilik maraqlarına qarşı çalışır. Çalışır ki, qaşınmayan yerdən qan çıxarsın. Nə bilmişdiniz. Hətta şeytanla da “işbirliyi quran” satqın erməni xislətli Ə.Kərimli bütün erməni üfunəti gələn deşiklərdən çıxır. Yalansa, sənin zatına lənət!. Mən də söz dedim də... Ə.Kərimli nə bilir “zatı” sözü nədir.***

Bu zatıqırıq ancaq Azərbaycanın ildırım sürəti ilə, bəli, ildırım sürəti ilə uğurlarını görüb içi iylənə-iylənə qalaraq sosial şəbəkələrdə çağırışlar etməyə ki, camaat mitinqlərə çıxsın. Ancaq elə sosial şəbəkələrdə hay-küy salmaq özünə qalıb. Baxın, əgər yadınızdadırsa, manatın dollara nisbətdə ucuzlaşmasında öz xeyri üçün istifadə etməyə cəhd göstərən Ə.Kərimli burada süni ajiotaj yaratmaq məqsədini əsas olaraq hədəf götürdü. Lakin Azərbaycan xalqı, yaxşı bilir ki, Ə.Kərimlinin əsl niyyəti nədir. Bu fərd ona görə hay-haray qaldırır ki, görsün xalq indiki vəziyyətdə ona dəstək verəcək, ya yox. Ancaq anlamır ki, hər dəfə oxu daşa dəyib, bundan sonra da dəyəcək. Çünki xalq Ə.Kərimli kimi satqın və əxlaqsızı çoxdan tarixin zibilliyinə atıb, üstündən də bir təpik vurub ki, bəsdir!!! Batsın səsin!!!

Ancaq qozbeli qəbir düzəltsə də, görünür bu xəyanətkar satqın və əxlaqsızı heç qəbir də düzəltməyəcək. Çünki beli əyri doğulub, əyri də qalacaq. Bax, buna görə deyirəm səsin batsın!!!. Ay şəbəkə əxlaqsızı!

Deyəndə ki, Ə.Kərimli şeytanla “iş birliyi quran”dır, bunu elə-belə demirəm. Baxın, hər şey bir yana, bu adam illərdir Azərbaycanın Avropaya inteqrasiyasının vacib olduğunu təbliğ edir, hakimiyyəti bu məsələdə gecikməkdə ittiham edir, günü bu günsə öz mövqeyinə tam əks mövqe sərgiləyir. Sual olunur: kimin əlinə oynayırsan, Ə.Kərimli?

Bir də, haqq nazilər, amma üzülməz. Bu fikri deməyə haqqım var. Çünki 25 ildən bəri erməni yalı ilə yemlənən sən Ə.Kərimli cinayətkarı, Vətən xainin adını “siyasi məhbus” qoyaraq, başlayırsan cinayətkarın müdafiəsinə. Məqsəd xarici qüvvələrə nökərçilik etməklə qrantlar qoparmağa. Yenə də qəribəsi də odur ki, qranta görə qaşınmayan yerdən qan çıxarmağa çalışan AXCP sədri Azərbaycanın uğurlarını görmək istəmir. Bax, yenə də deyirəm: alçaq, batsın sənin səsin, xəstə, mafioz!!!

Ə.Kərimli kimi sosial şəbəkə xəstələri onu da unudurlar ki, anti-Azərbaycan dairələrin qrant paylayan üfunətli ofislərinin mərmər döşəmələri üstündə gəzib özgə yalı ilə yallanmaqla heç nəyə nail ola bilməyib və bundan sonra da nail ola bilməyəcəklər. Çünki beləleri bilməlidirlər ki, Vətənin halal çörəyinə kəm baxanın gözlərinə qan damar və özgənin (həm də düşmənin) yalı ilə bəslənənləri isə tarix heç vaxt bağışlamır.

# Müvəkkilin insan hüquqları tələblərinə münasibəti

***Müvəkkil Konstitusiya Qanununun tələblərinə müvafiq olaraq, şikayətlərin onun səlahiyyətlərinə aid olmaması, ərizəçinin hüquqlarının pozulduğu gündən bir ildən çox müddət keçməsi, anonim olması, şikayətlə bağlı məhkəmə icraatı getməsi, təkrar təqdim edilmiş şikayətdə yeni məlumatlar, faktlar və sübutlar olmaması səbəbindən onların 46,3 %-nin baxılmasından imtina etmişdir.***

Şikayətlərin 53,7 %-i baxılmaq üçün icraata qəbul edilmiş, bunların da 64,5 %-i təmin olunmamışdır. Müraciətlərə Konstitusiya Qanunu ilə müəyyən edilmiş müddətlərdə baxılmış, ərizəçilərdən daxil olmuş bütün müraciətlər cavablandırılmışdır.

Müraciət edən şəxslərə həm qəbulda, həm də məktub vasitəsilə hüquqi məsləhətlər, habelə insan hüquq və azadlıqlarının müdafiyəsi formaları, üsulları, o cümlədən, bu və ya digər məsələlərlə əlaqədər müvafiq orqanlara müraciət edilməsi üzrə izahatlar verilmişdir.

Müvəkkilin təşəbbüsü, təklifi və təşkilatçılığı ilə ötən dövrdə insan hüquqlarının müdafiəsi və təşviqi üzrə bir sıra önəmli tədbirlər həyata keçirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı”nın icrası, təbliği və tətbiqi vəziyyətinin öyrənilməsi məqsədilə Bakı, Gəncə, Şəki, Bərdə, Cəlilabad və Qubada ölkənin şəhər və rayonları əhatə olunmaqla silsilə regional ictimai dinləmələr, o cümlədən Mərkəzi Seçki Komissiyası ilə birgə seçki hüququnun səmərəli təmin edilməsi ilə bağlı geniş tədbirlər keçirilmişdir.

“18 iyun - Azərbaycan Respublikasında İnsan Hüquqları Günü” ərəfəsində ənənəvi olaraq, mayın 18-dən iyunun 18-dək bütün ölkə boyu “İnsan hüquqları aylığı” keçirilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin 20 illiyi və BMT-nin və UNESCO-nun 70 illiyi münasibətilə 2015-ci il 12-14 noyabr tarixlərində Bakı şəhərində Müvəkkil tərəfindən UNESCO-nun dəstəyi ilə “Konstitusion hüquq və azadlıqların təmin olunmasında ölkədaxili və beynəlxalq təşkilatların əməkdaşlığının rolu” mövzusunda ənənəvi Ombudsmanların XIII Bakı Beyııəlxalq Konfransı keçirilmişdir.

Hər il olduğu kimi, 21 avqust - 21 sentyabr tarixlərində sülh mədəniyyətinin təbliğinə mühüm yer verməklə “Sülh aylığı” keçirilmiş, dövlət qurumlarına, vətəndaş cəmiyyəti təsisatlarına və kütləvi informasiya vasitələrinə bununla bağlı müraciətlər ünvanlanmış, televiziya proqramlarında yayımlanmış, qəzetlərdə dərc edilmişdir.

20 oktyabr - 20 noyabr tarixlərində keçirilmiş “Uşaq hüquqları aylığı” da Müvəkkilin təşəbbüsü və təşkilatçılığı ilə təşkil edilmiş tədbirlər sırasında məktəbəqədər yaşlı uşaqların və orta məktəb şagirlərinin hüquqi biliklərinin artırılmasında mühüm əhəmiyyət daşımış, dövlət qurumlarının diqqəti uşaq problemlərinin həllinə cəlb edilmişdir.

“10 dekabr Beynəlxalq İnsan Hüquqları Günü”nə, Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin 20 illiyinə, BMT-nin və UNESCO-nun 70 illiyinə həsr olunmuş “Azərbaycanda insan hüquqlarının təmini davamlı inkişaf perspektivindən” mövzusunda konfrans keçirilmiş, ənənəvi “Mən və hüquqlarım” mövzusunda uşaq rəsmləri, habelə, “Hüquqlar - hamı üçün!” mövzusunda jurnalist yazıları müsabiqələrinə yekun vurulmuş, qaliblər mükafatlandırılmışdır.

20 Yanvar faciəsinin ildönümü, Xocalı soyqırımı və 31 mart Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı bəyanatlar verilmiş, beynəlxalq qurumlara, xarici ölkələrin Azərbaycandakı səfirliklərinə və respublikamızın həmçinin ayrı-ayrı ölkələrdə fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarına ünvanlanmışdır.

Qeyd edilənlərlə yanaşı, əsir və girovların problemlərini hər zaman diqqət mərkəzində saxlayan Müvəkkil Ermənistan Respublikasının Silahlı Qüvvələri tərəfindən işğal olunmuş torpaqlarda - Azərbaycan Respublikasının Kəlbəcər rayonu ərazisində erməni hərbçiləri tərəfindən girov götürülmüş mülki şəxslər olan azərbaycanlılar Dilqəm Əsgərov və Şahbaz Quliyevin azad edilməsi ilə bağlı Beynəlxalq Qızıl Xaç Komitəsinin prezidenti Peter Maurerə müraciət etmiş, eyni zamanda, BQXK-nın Cenevrə şəhərində yerləşən baş iqamətgahında təşkilatın vitse-prezidenti xanım Kristina Börli ilə görüşmüş, həmin şəxslərin beynəlxalq hüquqa zidd, əsassız mühakimə edilməsinin, həmçinin onlara işgəncə verilməsinin ölkəmizdə böyük narahatlıq doğurduğunu və beynəlxalq ictimaiyyət tərəfindən narazılıqla qarşılandığını diqqətə çatdırmışdır.

Müvəkkil və təsisatın əməkdaşları müxtəlif beynəlxalq tədbirlərdə bir sıra aktual problemlərə dair məruzələrlə çıxışlar etmiş, insan hüquqlarının ayrı-ayrı sahələrinə dair geniş fikir və təcrübə mübadiləleri aparmışlar.

Müvəkkil xarici ölkələrin və beynəlxalq qurumların rəsmi nümayəndələrini qəbul etmiş, ölkəmizdə insan hüquq və azadlıqlarının müdafiəsi məsələləri, bu sahədə milli və beynəlxalq təcrübə müzakirə edilmişdir.

İştirak etdiyi bütün milli və beynəlxalq tədbirlərdə, habelə xarici ölkələrin və beynəlxalq qurumların rəsmi şəxsləri ilə keçirdiyi görüşlərdə Müvəkkil ölkəmizdə insan hüquqlarının təmini vəziyyətini, habelə insan hüquqlarının və azadlıqlarının müdafiəsi istiqamətində fəaliyyəti, təsisatla dövlət hakimiyyəti orqanları, o cümlədən, parlament arasında qarşılıqlı əməkdaşlıq əlaqələrinin qurulması, qanunvericiliyin təkmilləşdirilməsi sahəsində işgüzar münasibətlərin formalaşması barədə ətraflı məlumat vermiş, təşkilatçı qurumların və iştirakçıların diqqətini insanların sülh şəraitində yaşamaq, inkişaf etmək kimi kollektiv hüquqlarının təmin olunmasının zəruriliyinə cəlb etmiş, mövcud hərbi münaqişələrin sülh yolu ilə həll olunması, belə ağır zamanda və sonrakı dövrdə milyonlarla ziyan çəkən insanın hüquqlarının gerçəkləşdirilməsi, pozulmasının qarşısının alınması ilə bağlı tədbirlərin öz gələcək planlarında nəzərə alınmasını tövsiyə etmiş, bunun həm də Avropada vahid hüquq və humanitar məkan baxımından mühüm əhəmiyyət kəsb etdiyini əsaslandırmışdır.

BMT-nin Milli İnsan Hüquqları Təsisatlarının Beynəlxalq Koordinasiya Komitəsinin ən yüksək “A” statusuna malik olan təsisat ölkədə fəaliyyət göstərən yeganə milli insan hüquqları təsisatı kimi mütəmadi şəkildə BMT-nin İnsan Hüquqları Şurasının sessiyalarında və Milli İnsan Hüquqları Təsisatlarının Beynəlxalq Koordinasiya Komitəsinin iclaslarında fəal iştirak etmiş, həmin sessiyalarda Müvəkkilin yazılı və şifahı bəyanatları qəbul olunmuş, qeydiyyata alınmışdır.

BMT-nin İnsan Hüquqları Şurasının Cenevrədə keçirilmiş 28-ci sessiyasında və BMT-nin Milli İnsan Hüquqları Təsisatlarının Beynəlxalq Koordinasiya Komitəsinin növbəti iclasında iştirak edən Müvəkkil müzakirələrdə bəyanatla çıxış etmiş, insan hüquqlarının səmərəli müdafiəsi istiqamətində ölkədə aparılan islahatlarla yanaşı, təsisat tərəfindən hökumətə ünvanlanmış tövsiyə və təkliflər barədə məlumat vermiş, insan hüquq və azadlıqlarının daha səmərəli müdafiəsi və təmini istiqamətində hüquqi islahatların uğurla davam etdirildiyini, ölkəmizin müstəqillik tarixində insan hüquqlarının daha səmərəli təmini sahəsində üç mühüm strateji sənədin qəbul olunduğunu diqqətə çatdırmışdır.

Beynəlxalq Koordinasiya Komitəsinin iclasında iştirak edən Müvəkkil məruzə ilə çıxış edərək, “Azərbaycan 2020: Gələcəyə Baxış İnkişaf Konsepsiyasının” fəaliyyətinin davamlılığını təmin etməklə yanaşı, mühüm vəzifələr müəyyən etdiyini, həmçinin 8 hədəfin icrası üzrə vəzifələr müəyyən etmiş Minilliyin İnkişaf Məqsədlərinin başa çatması və sonrakı mərhələdə bütün dünya ölkələri üzrə razılaşdırılmış fəaliyyət planının həyata keçirilməsində Azərbaycanın yanaşmasını dünya dövlətləri üçün müsbət təcrübə kimi qəbul edildiyini bildirmişdir.

***VAHİD ÖMƏROV,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***


Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*

səs

Son səhifə 9 avqust

## Qurban bayramında Müqəddəs Kəbənin örtüyü dəyişdiriləcək



Qurban bayramında Müqəddəs Kəbənin örtüyü dəyişdiriləcək. Anadolu agentliyi xəbər verir ki, yeni örtük maşın və əllə hazırlanıb. Onun hazırlanmasında 200 işçi çalışıb. Örtüyün hazırlanmasına 700 kiloqram saf ipək, 120 kiloqram gümüş və qızıl sərf edilib. İpəklər İtaliyadan gətirilərək Məkkədə qara rəngə boyadılıb. Üzərində müxtəlif ayələr və dualar yazılıb. Dörd hissədən ibarət olan örtük 47 metr uzunluğunda və 657 kvadratmetrdir. Onun hazırlanmasına bir ilə qədər vaxt sərf olunub.

## Alyaskada içərisində SSRİ dövründən məktub olan butulka tapılıb



Alyaskanın qərbində içərisində SSRİ dövründən məktub olan şüşə butulka tapılıb. “İzvestiya” qəzetinin yazdığına görə, içərisində rus dilində yazılmış məktub olan zaman kapsulunu Şişmaryov körfəzində ABŞ vətəndaşı Tayler İvanoff aşkar edib. Mətndən məlum olur ki, məktub sahibi “Sulak” üzən bazasında Uzaq Şərq Gəmiçiliyinin Rus Donanmasında xidmət edib.

Məktubda deyilir: “Uzaq Şərq Gəmiçiliyinin Rus Donanması adından səmimi salam. “Sulak” üzən bazasının “Vostokrıbxolodflot” donanması. Bu butulkanı tapan şəxsi salamlayıram. Vladivostok şəhəri-43 “Sulak” üzən bazasında yerləşən “Vostokrıbxolodflot” ünvanında bütün heyətə məlumat verməyinizi xahiş edirik. Sizə cansağlığı, uzun ömür və rahat gəmi səfəri arzu edirik”. Məktub 1969-cu il iyunun 20-də yazılıb.

## Əliyar Ağayev Çempionlar Liqasında



Azərbaycanlı FİFA referisi Əliyar Ağayev UEFA-dan növbəti təyinatını alıb. AFFA-nın saytında yer alan xəbərə görə, o, Çempionlar Liqasının III təsnifat mərhələsində keçiriləcək LASK (Avstriya) - “Bazel” (İsveçrə) cavab matçının baş hakimi olacaq. Ona Zeynal Zeynalov və Akif Əmrəli kömək edəcəklər. Dördüncü hakim funksiyasını Orxan Məmmədov yerinə yetirəcək. Qeyd edək ki, sözügedən görüş avqustun 13-də, Avstriyada keçiriləcək.



### Təbrik edirik!

***Raulu 2 yaşının tamam olması münasibəti ilə atası Taleh, anası Çiçək, nənələri Sevda, Rəna, bacıları Zəhra, Dəniz, xalaları Səlimə, Çinarə, bibiləri Mətanət, Sevinc ürəkdən təbrik edir, Raula can sağlığı, uzun ömür arzulayırlar. Ad gününü mübarək.***

## “Azərbaycan güləşçiləri daha böyük zirvələr fəth etməkgücündədirlər”



İdmançılarımızın əldə etdikləri qələbələrin sayı getdikcə artır. Bu nailiyyətlərin qazanılmasında güləşçilərimizin xüsusi payı var. Bu günlərdə Bolqarıstanın paytaxtı Sofiyada keçirilən dünya birinciliyində yeniyetmə güləşçilərimiz daha bir uğura imza atdılar. Yunan-Roma güləşçilərimiz Nihat Məmmədli (55 kq) və Laçın Vəliyev (92 kq) qızıl, Ziya Babaşov (48 kq) və Elmir Əliyev (51 kq) gümüş, Fərid Sadıqlı (45 kq) isə bürünc medal qazanıblar. Komandamız bu nəticə ilə ikinci yeri tutub. Sərbəst güləşçi Cəbrayıl Hacıyev (65 kq) bütün rəqiblərinə qalib gələrək dünya çempionu olub. Murad Haqverdiyev (45 kq) isə bürünc medal qazanıb.

Bunu Azərbaycan Güləş Federasiyasının vitse-prezidenti Elçin Cəfərov dünya birinciliyinin yekunları ilə bağlı AZƏRTAC-a müsahibəsində deyib.

Güləşçilərimizin bu il beynəlxalq arenalarda keçirilən turnirlərdə ölkəmizi layiqincə təmsil etdiklərini vurğulayan vitse-prezident deyib: “Komandamız Avropa Gənclər Olimpiya Festivalı, eləcə də qitə çempionatında yüksək nəticələr əldə etdilər. Bu uğurların qazanılmasında komandamızın ciddi hazırlığı mühüm rol oynadı. Çünki komandamız il ərzində yüksək səviyyədə təlim-məşq toplanışları keçmişdi. Digər yarışlarda da güləşçilərimizdən yüksək nəticələr gözləyirik. Yığmanın bəzi üzvləri artıq gənclər kateqoriyasında iştirak edəcəklər. Onların arasında elə idmançılar var ki, böyüklər arasında keçiriləcək təlim-məşqlərdə də yer alacaqlar. Bu gün Azərbaycan güləşçiləri daha böyük zirvələr fəth etmək gücündədirlər”.

## “Arsenal” David Luisin transferi məsələsində “Çelsi” ilə razılığa gəlib



Londonun “Arsenal” klubunun braziliyalı müdafiəçi David Luisin transferi məsələsində “Çelsi” ilə 8 milyon funt sterlinq qarşılığında razılığa gəldiyi bildirilir. BBC xəbər verir ki, 32 yaşlı futbolçu ilə iki illik müqavilənin imzalanması nəzərdə tutulur. Cari ilin mayında “Çelsi” ilə iki illik müqavilə imzalayan futbolçunun bu gün tibbi müayinədən keçməsi planlaşdırılır.

David Luis “Çelsi”nin heyətində keçirdiyi altı ilyarım müddətdə Premyer Liqada meydana çıxdığı 160 oyunda 11 qol vurub. O, 2011-ci ilin yanvarında 21 milyon funt sterlinqə “Benfika”dan London təmsilçisinə keçid edib. 2014-cü ilin iyununda 40 milyon funt sterlinqə “Paris Sen-Jermen”ə transfer olunan müdafiəçi iki ildən sonra 34 milyon funt sterlinq müqabilində yenidən “Çelsi”yə qayıdıb. İki gün əvvəl “Arsenal” klubu müdafiəçi Lorent Koşielnini 5 milyon avroya “Bordo” klubuna satıb. Klub rəhbərliyi “Seltik”in sol cinah müdafiəçisi Kieran Tierninin 25 milyon funt sterlinq müqabilində transferi ilə bağlı da danışıqlar aparır. On səkkiz yaşı tamam olmamış əcnəbi futbolçularla müqavilə imzaladığı üçün “Çelsi” klubu 2020-ci ilin yanvarına qədər transfer qadağası ilə cəzalandırılıb.

## Bakıda su polosu üzrə açıq Bakı birinciliyi keçirilib



Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin (BŞGİBİ) təşkilatçılığı ilə Su İdmanı Sarayında su polosu (vaterpol) üzrə açıq Bakı birinciliyi keçirilib. BŞGİBİ-dən AZƏRTAC-a bildiriblər ki, yarışda Azərbaycan komandaları ilə yanaşı, Qazaxıstanın “Astana” klubunun vaterpolçuları da iştirak ediblər. Gərgin idman mübarizəsi şəraitində keçən turnirdə “Astana” komandası birinci yeri tutub. Sonrakı yerlərdə müvafiq olaraq “Aqvatik-I”, “Aqvatik-II” və “MOİK” komandaları qərarlaşıblar. Qalib komandalar kubok, diplom və xatirə hədiyyələri ilə mükafatlandırılıblar.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**